AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

27 NOYABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 265 (6298) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## H.F.Hacıyevin Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Hikmət Fərhad oğlu Hacıyev Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin əməkdaşlarına “Əməkdar müəllim” fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 90 illik yubileyi münasibətilə və Azərbaycanda musiqi təhsilinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar müəllim” fəxri adı verilsin:

Kraynova Valentina Serqeyevna
Manafova Ülviyyə Azər qızı
Səttarova Səadət Qüdrət qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının 1992-ci il 7 iyul tarixli 201 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 13, maddə 492; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 3, maddə 141; 2016, N 1, maddə 32) ilə təsdiq edilmiş “Qızıl Ulduz” medalının təsviri”nin ikinci hissəsinin ikinci cümləsində “Yuxarı şüanın küncündə” sözləri “Arxa tərəfinin aşağı hissəsində” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

# Prezident İlham Əliyev ABŞ-ın tanınmış din xadimlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Abraham Kuper hələ sovetlər dövründə Azərbaycanda olarkən xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən dini icmaların azad fəaliyyəti üçün şəraitin yaradıldığının şahidi olduğunu dedi. Ravvin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirdi və müstəqillik dövründə bu meylin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə bir ailə kimi dostluq şəraitində yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev onların Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini dedi. Dövlətimizin başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.

**AZƏRTAC**

*Vladimir SOLOVYOV:*

# Hiss edirdim ki, Prezident İlham Əliyev gün ərzində mətbuatı şəxsən izləyir

**Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə görüşünün təəssüratları barədə danışıb.**

AZƏRTAC xəbər verir ki, Vladimir Solovyov Prezident İlham Əliyevin Rusiya və Azərbaycan mətbuatında baş verənlərdən çox ətraflı məlumatlı olduğunu söyləyib. O, Prezident İlham Əliyevin söhbət zamanı dünyanın müxtəlif ölkələrindən, o cümlədən Rusiyadan bir çox jurnalistlərin soyadlarını çəkdiyini bildirərək deyib: “Hiss edirdim ki, Prezident gün ərzində mətbuatı şəxsən izləyir. İş burasındadır ki, Prezident İlham Əliyev Qərb mediasını ingilis, bizimkini rus, Türkiyə mətbuatını isə türk dilində izləyir. Məhz dil bilikləri sayəsində dövlət başçısının bu cür materialları izləməklə problemi olmur”.

Rusiya Jurnalistlər İttifaqının sədri onu da əlavə edib ki, Azərbaycan və Rusiya prezidentlərinin xarakterində bir çox oxşar cəhətlər var. Onlar inanılmaz siyasi üfüqə sahibdirlər. Çətin ki, digər prezidentlər onlarla müqayisə olunsun.

**AZƏRTAC**



## “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1243-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1243-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 9, maddə 684; 2011, N 2, maddə 70; 2014, N 1, maddə 3; 2015, N 11, maddə 1266; 2016, N 1, maddə 41, N 11, maddə 1766; 2017, N 2, maddə 145, N 5, maddə 691, N 7, maddələr 1277, 1300, N 12, (I kitab), maddə 2202; 2018, N 7 (I kitab), maddələr 1381, 1409) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7.3-cü maddədə “Azərbaycan” sözü “Tədris” sözü ilə əvəz edilsin.

**2.** 22.12-ci maddədə “müqavilələrə,” sözündən sonra “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsis etdiyi təhsil qrantı proqramına,” sözləri əlavə edilsin.

**3.** 44.1-ci maddədə “kvota” sözündən sonra “, təhsil qrantı proqramı” sözləri əlavə edilsin.

**4.** Aşağıdakı məzmunda 44.1-1-ci maddə əlavə edilsin:

“44.1-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsis etdiyi təhsil qrantı proqramı üçün ölkələri, ölkələr üzrə kvotaları, namizədlərin seçim meyarlarını və bunların əsasında qrant alacaq şəxslərin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyənləşdirir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Elm haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 8, maddə 1366) 39.6-cı maddəsində “beynəlxalq müqavilələr,” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsis etdiyi təhsil qrantı proqramı,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1291-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1291-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

*2.1.* “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 22.12-ci və 44.1-1-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və həmin Qanunun 22.12-ci və 44.1-1-ci (birinci halda) maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*2.2.* həmin Qanunun 44.1-1-ci maddəsində ikinci halda nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin “İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında” 2017-ci il 6 dekabr tarixli 3457 nömrəli və “Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi haqqında” 2018-ci il 10 yanvar tarixli 3567 nömrəli sərəncamları üzrə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1262-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1262-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki, “Elm haqqında” Azərbaycan Respublikası Qanununun 39.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının və orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 2, maddə 56; 2015, N 2, maddə 92, N 5, maddə 496, N 7, maddə 821; 2016, N 6, maddələr 999, 1007; 2017, N 10, maddə 1769; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1209-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 33.1-ci maddədə “məhkəmənin qərarı ilə” sözləri “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

**2.** 41.0.7-ci maddədə “məhkəmənin hökmü ilə” sözləri “Azərbaycan Respublikası Cinayət Məcəlləsinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 oktyabr 2018-ci il.**

## “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin İ hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 4, I kitab, maddə 155; 2008, N 6, maddə 462; 2014, N 8, maddə 955; 2016, N 11, maddə 1778; 2017, N 7, maddə 1265) 5.4-cü maddəsi ləğv edilsin və 5.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

“5.3. Bu Qanunun 8.0.1-ci və 8.0.2-ci maddələrində nəzərdə tutulmuş vergilərin yığılması üçün bələdiyyələr ərazilərində yerləşən vergitutma obyektlərinin müəyyən edilməsi məqsədi ilə daşınmaz əmlakın dövlət reyestrindən qanunla müəyyənləşdirilmiş qaydada məlumat ala bilərlər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1314-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1283-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1283-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1313-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1313-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 26 noyabr 2018-ci il.**

## “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1106-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3, I kitab, maddə 125; 2001, N 12, maddələr 731, 736; 2004, N 11, maddə 901; 2006, N 6, maddə 478; 2007, N 5, maddə 436, N 10, maddə 938; 2008, N 5, maddə 348, N 7, maddə 602; 2012, N 6, maddə 506; 2013, N 6, maddələr 599, 624; 2014, N 4, maddə 341, N 7, maddə 775; 2016, N 2, I kitab, maddə 200, N 12, maddələr 1994, 1995; 2017, N 5, maddə 720, N 12, I kitab, maddə 2229; 2018, N 1, maddə 20) 29-cu maddəsinin səkkizinci abzasına “fövqəladə” sözündən əvvəl “hərbi vəziyyət rejiminin tətbiqi,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

# Baş Prokurorluğun nümayəndəsi Avropa Prokurorlarının Məşvərət Şurasının tədbirində iştirak edib

**Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndəsi Strasburqda Avropa Prokurorlarının Məşvərət Şurasının (CCPE) 13-cü plenar iclasında iştirak edib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ikigünlük plenar iclasda ekspert qrupu tərəfindən “Prokurorların müstəqilliyi, hesabatlılığı və etik davranışı” adlı 13 saylı Rəy geniş müzakirə olunaraq qəbul edilib.

Prokurorların dövlətin cinayət ədliyyəsi sistemində və qanunun aliliyinin qorunmasında müstəsna rolunu və Avropa Şurasına üzv dövlətlərin prokurorları arasında əməkdaşlığın vacibliyini nəzərə alaraq, 2005-ci ilin iyulunda bu qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Prokurorlarının Məşvərət Şurası yaradılıb. Avropa Şurasına üzv dövlətlərin yüksək vəzifəli prokurorlarını birləşdirən qurum hər il plenar iclaslar təşkil etməklə prokuror fəaliyyətinə aid aktual mövzular üzrə rəylər hazırlayıb Nazirlər Komitəsinə təqdim edir.

Şuranın 13-cü plenar iclasında, həmçinin Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Direktorluğunun İnsan hüquqları məsələləri üzrə direktoru Kristof Puarel Azərbaycana sonuncu səfəri barədə məlumat verərək, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirib. O, Şuranın qəbul etdiyi sənədlərin daha geniş hüquqşünas auditoriyasına təqdim olunması məqsədilə rəylərin üzv dövlətlərin dillərinə tərcümə edilməsinin vacibliyini vurğulayaraq, bu sahədə ölkəmizi nümunə kimi xüsusi vurğulayıb və Azərbaycan Respublikasının Baş Prokurorluğuna təşəkkürünü bildirib.

Tədbirdə Azərbaycanı təmsil edən Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov 13 saylı Rəyin müzakirəsi zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan məhkəmə-hüquq islahatları, prokurorluğun fəaliyyətini tənzimləyən qanunvericilik aktları, həmçinin “Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik davranış Kodeksi” barədə ekspert qrupunu məlumatlandırıb. Verilən təkliflər nəzərə alınaraq, sənəddə əksini tapıb.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl təcrübəsi nəzərə alınaraq, Azərbaycan “Korrupsiya, iqtisadi və maliyyə cinayətlərinə qarşı mübarizədə prokurorların rolu” adlı Rəyin hazırlanması üzrə işçi qrupun üzvü seçilib.

Plenar iclasın sonunda Portuqaliya nümayəndəsi Hose Manuel Santos Pais yekdilliklə Şuranın növbəti il üçün prezidenti seçilib.

**AZƏRTAC**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr, 3, 4, 5, 6, 7, 9, 14, 21 oktyabr, 4 və 25 noyabr tarixli saylarımızda)*

### 23 oktyabr 2018-ci il

○ **Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın daxili işlər nazirini qəbul edib.**



### 24 oktyabr 2018-ci il

○ **Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab Nquyen Fu Çonqa:** Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirini qəbul edib.**

### 25 oktyabr 2018-ci il

○ **Bakıda VI Beynəlxalq Humanitar Forum işə başlayıb:** Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib: Prezident İlham Əliyevin nitqi.

○ **Azərbaycan Prezidenti İlham Əliyev BMT baş katibinin müavinini qəbul edib.**

○ **Prezident İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektorunu qəbul edib.**

○ **Prezident İlham Əliyev UNESCO-nun baş direktorunun müavinini qəbul edib.**



○ **Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Baş nazirinin müavinini qəbul edib.**

○ **Prezident İlham Əliyev İSESCO-nun baş direktorunu qəbul edib.**

○ **Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın prezidentini qəbul edib.**

○ **Prezident İlham Əliyev Uruqvay Nümayəndələr Palatasının sədrini qəbul edib.**

○ **Prezident İlham Əliyev Sloveniya Milli Şurasının sədrini qəbul edib.**

○ **Avstriya Respublikasının Federal Prezidenti Zati-aliləri cənab Aleksander Van der Bellenə:** Avstriya Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Çex Respublikasının Prezidenti zati-aliləri cənab Miloş Zemana:** Çex Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 26 oktyabr 2018-ci il

○ **"Gələcəyimizə sərmayə: dayanıqlı və inklüziv inkişafa doğru" mövzusunda "dəyirmi masa" iştirakçılarına:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana:** Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 28 oktyabr 2018-ci il

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Qax rayonuna və Şəki şəhərinə səfəri:** Qax şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Qax rayonuna və Şəki şəhərinə səfəri:** Kənd Təsərrüfatı Nazirliyinin yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyası istifadəyə verilib.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Qax rayonuna və Şəki şəhərinə səfəri:** Prezident İlham Əliyev "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı.

**(davamı növbəti saylarımızda)**

# İstanbulda "Hər kəs üçün davamlı inkişaf və sülh" devizi ilə 9-cu Boğaziçi Sammiti keçirilir

## *Sammitin rəsmi açılışında Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov iştirak edib*

**Noyabrın 26-da İstanbulda "Hər kəs üçün davamlı inkişaf və sülh" devizi ilə keçirilən 9-cu Boğaziçi Sammitinin rəsmi açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Sammit Türkiyə Prezidentinin himayəsi altında fəaliyyət göstərən Beynəlxalq Əməkdaşlıq Platforması tərəfindən 2011-ci ildən etibarən hər il İstanbulda təşkil olunur. Tədbirdə yüzdən artıq ölkədən dəvət olunmuş dövlət və hökumət başçıları, rəsmi şəxslər, qeyri-hökumət təşkilatlarının, analitik mərkəzlərin və qlobal şirkətlərin rəhbərləri iştirak edirlər.

Beynəlxalq tədbir dünyanın müxtəlif ölkələri arasında iqtisadi, siyasi, diplomatik və enerji sahəsində əlaqələrin daha da dərinləşməsi, dövlətlər arasında müasir dövrün tələblərinə uyğun əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi, bəşəriyyəti narahat edən məsələlərin həlli üçün birgə fəaliyyət mexanizmlərinin hazırlanması və digər bu kimi mühüm mövzuların müzakirə edildiyi platforma hesab olunur.





Builki Sammitin açılışında Makedoniya Prezidenti George İvanov, Şimali Kipr Türk Respublikasının Prezidenti Mustafa Akıncı, habelə Küveyt, İordaniya, Polşa, Rusiya, Qətər, Malayziya və dünyanın bir çox ölkəsindən rəsmi şəxslər, həmçinin keçmiş dövlət və hökumət rəhbərləri də iştirak ediblər.

Sammitdə Azərbaycanı təmsil edən Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV çıxış edərək çox mühüm beynəlxalq əhəmiyyət daşıyan belə bir tədbirin təşkilinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Türkiyə dövlətinə təşəkkürünü bildirib.

Çıxışında dövrümüzün acı reallıqlarından bəhs edən Prezidentin köməkçisi bildirib ki, bəzi dövlətlər əməkdaşlıq şəraitində davamlı inkişafa nail olmaq yolunu deyil, əksinə, qəsb, işğal, silahlanma yolunu seçiblər. Bu cür antihumanist siyasət hazırda Mərkəzi və Şimali Amerika sərhədlərindən Suriya və Türkiyə, Myanma və Banqladeş sərhədlərinədək bütün dünyanın geosiyasi məhvərindən keçir. Belə bir fəlakət artıq 30 ilə yaxındır ki, Cənubi Qafqazda da yaşanmaqdadır. Müstəqilliyimizin ilk illərində qonşu Ermənistanın yürütdüyü təcavüzkar siyasət, Azərbaycana qarşı heç bir tarixi və hüquqi əsası olmayan ərazi iddiaları bir milyondan çox vətəndaşımızın qaçqın və köçkünə çevrilməsinə, ərazimizin 20 faizinin işğalına səbəb olub. Həmin torpaqlarda qədim dini və tarixi abidələrin vəhşicəsinə darmadağın edilməsi ATƏT-in faktaraşdırıcı missiyası tərəfindən də təsdiq edilib. Dünyanın 10-dan çox ölkəsi və çoxsaylı beynəlxalq qurumlar azərbaycanlılara qarşı törədilmiş Xocalı soyqırımını tanıyıblar.

Əli Həsənov diqqətə çatdırıb ki, Dağlıq Qarabağ münaqişəsi bu gün yalnız Cənubi Qafqazdakı kövrək sülhü deyil, bütün Avropanın və dünyanın təhlükəsizliyini təhdid edir. Bunun kökündə beynəlxalq hüquqa, digər ölkələrin ərazi bütövlüyünə, səmavi dinlərin sülh çağırışlarına məhəl qoymamaq, böyüklük maniyası, dənizdən-dənizə ərazilərə sahiblənmək iddiası, bu iddianı reallaşdırmaq naminə hər cür saxtakarlığa və bəşəri cinayətə yol vermək amili durur.

"İşğal faktına baxmayaraq, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan nəinki öz dinamik inkişafını təmin edə bilib, həm də Avropanın və Yaxın Şərqin iqtisadi və mədəni inteqrasiyasında, Avropanın enerji təhlükəsizliyinin təminatında xüsusi rol oynayan ölkəyə çevrilib", - deyən Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan dövlətinin öz tərəfdaşları ilə həyata keçirdiyi qlobal layihələr təkcə enerji təhlükəsizliyi və kommunikasiya layihələri deyil, onlar təhlükəsizliyin təmin edilməsinə böyük töhfə verir, qitələri biri-birinə birləşdirir, dünyanın geoiqtisadi xəritəsinin yenidən çəkilməsini şərtləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın təşəbbüsçüsü olduğu layihələrdən bütün iştirakçı dövlətlər, xüsusən qonşu ölkələr də faydalanmaqdadırlar. Elə bu yaxınlarda istifadəyə verilmiş "STAR Refinery" zavodunun həm Türkiyə, həm Azərbaycan üçün gətirəcəyi faydanı xatırlamaq kifayətdir. Lakin orta əsr qəsbkarları kimi daha asan yolla, özgə torpaqlarını işğal etməklə varlanmaq istəyən cinayətkar Ermənistan rejimi bu gün regional təşəbbüslərdən təcrid olunub. Bu, belə də olmalıdır. İşğal yolu tutan hərbi xunta öz xalqına səadət deyil, yalnız fəlakət gətirə bilər ki, bu da Ermənistanın timsalında öz təsdiqini bir daha tapır.

Azərbaycanın bölgədəki sülhyaratma əməliyyatlarında fəallığı ilə seçildiyini vurğulayan Əli Həsənov qeyd edib ki, ölkəmiz NATO-nun, Avropa İttifaqının, ATƏT-in, MDB-nin əməkdaşlıq proqramlarının fəal iştirakçısıdır. Azərbaycan işğalçı Ermənistan istisna olunmaqla, bütün qonşularla ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatlarında işbirliyini inkişaf etdirir. Əlbəttə, ərazi bütövlüyümüzə hərbi təcavüz olmasaydı və ölkəmizin maddi, insani resursları işğalın aradan qaldırılmasına yönəldilməsəydi, indi həm Azərbaycanın, həm də bölgənin inkişafı başqa bir səviyyədə olardı.

"Biz elə bir bölgə, elə bir dünya arzusundayıq ki, eyni coğrafiyanı, eyni və ya yaxın mədəniyyətləri bölüşən insanlar mühacirət yolu seçməyə məhkum olmasınlar, öz tarixi torpaqlarında qalsınlar, yaşayıb inkişaf etsinlər", - deyən Prezidentin köməkçisi bildirib ki, bunun üçün hər kəs özündə təcavüzkara "dur" demək cəsarəti tapmalı, bu istiqamətdə irəli sürülən bütün təşəbbüslər dəstəklənməli, səylər birləşdirilməlidir. Bu baxımdan 9 ildir Boğaziçi Zirvəsi hər kəs üçün davamlı inkişafa, sülh axtarışlarına öz töhfəsini verir. Türkiyənin münaqişələrin həllində, bölgədə davamlı sülhün bərpasında çox böyük zəhməti var. Prezident Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə dünyanın mühüm geosiyasi aktoruna çevrilmiş Türkiyə dövlətinin yürütdüyü siyasət, keçirdiyi sülhyaratma əməliyyatları, apardığı gərgin diplomatik mübarizə bölgədəki münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin ədalətli həllinə yönəlmiş böyük fəaliyyətdir. Bu işdə qardaş Türkiyəyə uğurlar arzu edirik.

Sonra çıxış edən Makedoniyanın Prezidenti George İVANOV və Polşa hökumətinin keçmiş üzvü Jacek ROSTOVSKİ İkinci Dünya müharibəsindən ötən dövrdə Avropada yaşanan siyasi-iqtisadi problemlərdən bəhs ediblər. Diqqətə çatdırılıb ki, dünyadakı bütün münaqişə və qarşıdurmalar bu və ya digər formada Avropa ölkələrinə mənfi təsir göstərir. Dünyada sülh və inkişafa nail olmaq üçün bu problemlərdən yaxa qurtarmaq vacibdir.

Türkiyənin Avropa İttifaqı məsələləri üzrə sabiq naziri Egemen BAXIŞ qeyd edib ki, mövcud münaqişələr, dövlətlərin ərazi bütövlüyünə qəsd müasir dünyanın başlıca humanitar problemləridir. Çünki bu problemlərdən ən çox əziyyət çəkən dinc insanlardır. Mövcud münaqişələrin həll olunmaması sülh ümidlərinə zərbə vurur.

Yaxın Şərq probleminin olduqca təhlükəli mərhələyə çatdığını vurğulayan İordaniya Senatının sədri Faisal əl-FAYEZ qeyd edib ki, İordaniya sülh və inkişaf tərəfdarıdır. O bildirib ki, Suriyada vətəndaş müharibəsi bölgə ölkələri arasında ticarət əlaqələrinə zərbə vurub. Bölgədəki humanitar böhran tezliklə həllini tapmazsa münaqişə yalnız qonşuların ərazisinə yox, uzaq ölkələrə də sıçraya bilər.

Rusiya-Türkiyə iqtisadi əlaqələrinin bölgənin inkişafına töhfəsindən danışan Rusiya Federasiyasının Çeçenistan Respublikasının Baş naziri Muslim HUÇİEV ölkəsinin iqtisadi potensialı və sərmayə mühiti barədə geniş məlumat verib. Baş nazir əminliklə bildirib ki, Çeçenistana sərmayə yatırmaq istəyən türkiyəli iş adamları bunun yaxşı bəhrəsini görə bilərlər.

Türkiyədə istehsal və tədarük olunan məhsulların xarici bazarlarda sürətlə artdığını diqqətə çatdıran Türkiyə İxracatçılar Məclisinin sədri İsmayıl GÜLLƏ bildirib ki, ixracatçılar üçün qısa və təhlükəsiz yol axtarışı müasir dünya iqtisadiyyatında ən mühüm məsələdir. Bu mənada Bakı-Tbilisi-Qars dəmir yolu xətti və İstanbul Hava Limanı Avrasiya məkanında iqtisadi münasibətlər üçün yeni üfüqlər açır. Lakin bundan da irəlidə olan sülh və sabitliyin mövcudluğudur.

Bütün qonaqlara Boğaziçi Sammitində iştiraka görə təşəkkürünü ifadə edən Beynəlxalq Əməkdaşlıq Platformasının qurucusu Cengiz Özgengcil əmin olduğunu bildirib ki, müzakirə edilən məsələlər sülhsevər dünya ictimaiyyəti tərəfindən maraqla qarşılanacaq.

Çıxışçılar sülh, sabitlik və inkişafın yollarına dair fikir və mülahizələrini bölüşüblər. Diqqətə çatdırılıb ki, müasir dünyada qlobal iqtisadiyyatın başlıca problemi münaqişə və qarşıdurmalardır. Qeyd olunub ki, münaqişə və qarşıdurmalar cəmiyyətlərin inkişafında ən pozucu amildir. Davamlı sülhə nail olmaq üçün istənilən zəmində əsassız iddialardan əl çəkmək lazımdır.

Sammit işini noyabrın 28-dək "Hər kəs üçün inkişafa beynəlxalq təhdid: Ticarət müharibələri", "Yeni istiqamətlər axtaran dünyada dayanıqlı gələcəyin şifrələri", "Dünyanın idarə olunmasında dəyişiklik ehtiyacı", "Sülh üçün müdafiə və təhlükəsizlik", "Gələcəyin texnologiyalarına doğru", "İqtisadi inkişafın təşkilində medianın rolu" və digər mövzularda "dəyirmi masa"lar və panellərlə davam etdirəcək.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Sammit çərçivəsində Azərbaycanın və xarici ölkələrin KİV-lərinə müsahibə verib.

**AZƏRTAC**

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

**Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş Ə.Səfərovun məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.**

**Şikayətə mahiyyəti üzrə, Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 14-nə təyin edilmiş iclasında baxılacaq.**

**AZƏRTAC**

# Rusiya aeroportlarına ad seçilir: Tümendə Fərman Salmanov və Sabit Orucov adları daha çox səs yığıb

**Rusiya aeroportlarına dahi şəxsiyyətlərin adlarının verilməsinə dair səsvermə davam edir. Səsvermənin 15-ci gününün nəticələrinə görə, Tümenin Surqut və Nijnevartovsk şəhərlərində əfsanəvi azərbaycanlı geoloq Fərman Salmanovun, Novıy Urenqoyda isə keçmiş SSRİ-nin qaz sənayesi naziri, soydaşımız Sabit Orucovun adları daha çox səs toplayıb.**

AZƏRTAC xəbər verir ki, Surqut aeroportu üçün səs verənlərin 59 faizi Fərman Salmanovu, 30 faizi Yermak Timofeyeviç, 9 faizi Aleksandr Filippenkonu seçib. Nijnevartovsk aeroportuna ad verilməsinə dair səsvermədə iştirak edənlərin isə 48 faizi Fərman Salmanova, 35 faizi Nikolay Arxangelskə, 16 faizi Aleksandr Filipenkoya səs verib.




Keçmiş SSRİ-nin qaz sənayesi naziri, soydaşımız Sabit Orucovun adı Novıy Urenqoy aeroportu üzrə səsvermədə 41 faiz səslə irəlidədir. Yamala-Nenetski Muxtar Dairəsinin qubernatoru Dmitri Artyuxov özünün "İnstagram" səhifəsində Sabit Orucova səs verməyə çağırıb.

Qubernator yazır: "Bir urenqoylu kimi, mənə Orucovun namizədliyi daha yaxındır. Onun Rusiyanın gələcək qaz paytaxtının yerini necə müəyyən etməsi tarixçəsini yaxşı xatırlayıram. Aeroportun layihədə iştirak etməsi bu hadisəni əbədiləşdirmək imkanı verir".

Fərman Salmanovun adı iki şəhərdə - Surqut və Nijnevartovskda daha çox səs toplayıb. Hər iki regionda Fərman Salmanov seçiləcəyi təqdirdə səslərin sayı nəzərə alınacaq. Səslərin sayının nisbətən az olduğu şəhərdə təkrar səsvermə keçiriləcək.

Xatırladaq ki, səsvermə noyabrın 30-dək davam edəcək, federal səsvermənin nəticələri dekabrın 5-də elan olunacaq.

**AZƏRTAC**

# NAZİR İNAM KƏRİMOV TƏRTƏRDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.**

Tərtib edilən qəbul cədvəlinə müvafiq kənd təsərrüfatı naziri İnam Kərimov noyabrın 24-də Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Laçın və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.



Qəbuldan öncə nazir İnam Kərimov və Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra nazir İnam Kərimov Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub. Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 43 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Baş Dövlət Texniki Nəzarət Xidmətinin "Səyyar Xidmət" Qrupu ətraf rayonlardan dəvət olunan mexanizatorlar üçün lazımi xidmət göstərib. Etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün 105 nəfər mexanizatorun sürücülük vəsiqəsi yenisi ilə əvəz edilib, 3 nəfər isə texnikasını dövlət qeydiyyatı və texniki baxışdan keçirib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Salyanda vətəndaş qəbulu keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov 23 noyabr tarixində Salyan şəhərində vətəndaş qəbulu keçirib. Qəbulda Salyan rayonu ilə yanaşı, Şirvan şəhəri, Sabirabad və Saatlı rayonlarından olan vətəndaşlar da iştirak edib. Müraciətlər əsasən daşınmaz əmlakların dövlət qeydiyyatı, torpaqların təyinatı üzrə istifadəsi və kateqoriyasının dəyişdirilməsi, texniki pasport və digər sənədlərin alınması ilə bağlı olub. Həmçinin, dövlət əmlaklarının özəlləşdirilməsi və icarəsi ilə bağlı suallar da səsləndirilib.

Hər bir vətəndaş müraciətini diqqətlə dinləyən komitə sədri bütün məsələlərin qanunvericiliyə uyğun olaraq həlli istiqamətində tapşırıqlarını verib. Komitənin fəaliyyət istiqamətlərinə aid olmayan məsələlər isə aidiyyəti üzrə göndərilməsi üçün qeydiyyata alınıb. Araşdırılma tələb edən müraciətlərin həll olunması ilə bağlı struktur bölmələrin nümayəndələrinə müvafiq göstərişlər verilib. Bəzi məsələlər elə yerindəcə dərhal həll edilib.



Qəbul zamanı komitə sədri xidmətlərin vətəndaşlara daha yaxın, əlçatan və operativ formada göstərilməsi üçün tətbiq edilən yeniliklərdən danışıb. Qeyd edib ki, daşınmaz əmlakın qeydiyyatı zamanı arxiv sənədlərinin əldə olunması üçün artıq əlavə ünvanlara müraciət etməyə ehtiyac yoxdur. Yaradılan elektron əlaqə ilə qeydiyyat xidmətinin göstərildiyi məkanda vətəndaşın təqdim etdiyi sənədin arxiv əsasının olub-olmadığı operativ şəkildə müəyyənləşir.

Daşınmaz əmlakların qeydiyyatı prosesindəki üstünlüklər vətəndaşların daha rahat və sürətli formada mülkiyyət hüquqlarını həyata keçirməsini təmin edir. Belə ki, daşınmaz əmlaka dair çıxarışlar vətəndaşların istəyi ilə həm kağız, həm də elektron formada 1 iş günü müddətində də təqdim edilir.

Torpaqların kateqoriyasına uyğun istifadəsi ilə bağlı məsələlərə toxunan komitə sədri bildirdi ki, qanunvericiliyə müvafiq olaraq bu sahə üzrə tələblərə riayət olunmasına nəzarət gücləndirilib. Təyinatına uyğun istifadə edilməyən torpaqların aşkar olunması və belə halların aradan qaldırılması üçün komitə tərəfindən mütəmadi monitorinqlər aparılır.

Qəbul zamanı komitə sədri vətəndaşlara göstərilən bütün xidmətlərdə məmnunluğun, çevikliyin və şəffaflığın təminatı istiqamətində görülməli işlərlə bağlı komitənin ərazi idarələri və tabeli qurumlarının yerli şöbələrinin rəhbərlərinə tapşırıqlarını verib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Astanada Qazaxıstanın Birinci Prezident Günü münasibətilə beynəlxalq parlament konfransı keçirilib

**Astana şəhərində Qazaxıstanın Birinci Prezident Günü münasibətilə beynəlxalq parlament konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Astana - qlobal inteqrasiya, təhlükəsizlik və sülh mərkəzi" mövzusunda keçirilən beynəlxalq parlament konfransı ölkə parlamentinin təklifi və Xarici İşlər Nazirliyinin dəstəyi ilə təşkil olunub.

Tədbirdə Azərbaycanı Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov təmsil edib. Konfransda İtaliya, Qırğızıstan, Litva, Rusiya, Türkiyə, Özbəkistan parlamentlərinin rəhbərlikləri ilə yanaşı, Qazaxıstan Parlamenti Məclisinin deputatları iştirak ediblər.

Konfransı açan Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulin Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin Mərkəzi Asiya dövlətləri arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, regional təhlükəsizliyin təmin edilməsi istiqamətindəki fəaliyyəti, Qazaxıstanın BMT Təhlükəsizlik Şurasına sədrliyinin prioritetlərinin reallaşdırılması kimi beynəlxalq təşəbbüslər, həmçinin ölkədə həyata keçirilən siyasi, iqtisadi islahatlar barədə məlumat verib.

Qazaxıstanın xarici işlər naziri Kayrat Abduraxmanov konfransda çıxış edərək deyib ki, Qazaxıstan bu gün dünyada etibarlı tərəfdaş, sabit inkişaf edən ölkə kimi tanınır. Qazaxıstan regionda sabitliyin, təhlükəsizliyin, Avrasiya regionunda geniş inteqrasiyanın tərəfdarıdır. Qazaxıstan bütün qonşu ölkələrlə dostluq əlaqələrinə malikdir.

Birinci Prezident Günü münasibətilə təbriklərini çatdıran Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov regionda və dünyada sabitliyin, təhlükəsizliyin təmini, terrorizmə qarşı mübarizə, nüvə silahının yayılmasının qarşısının alınması ilə bağlı məsələlərin müzakirəsinin əhəmiyyətini vurğulayıb. Milli Məclis sədrinin birinci müavini Qazaxıstanın Nursultan Nazarbayevin rəhbərliyi ilə regionda sülhün, təhlükəsizliyin, sabitliyin bərqərar olması üçün mühüm addımlar atdığını vurğulayıb.

Azərbaycan-Qazaxıstan ikitərəfli münasibətlərinin möhkəm təməlinin olduğunu söyləyən Ziyafət Əsgərov ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb. "Xalqlarımız arasında qədim və tarixi əlaqələr mövcuddur. Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin əsası ümummilli lider Heydər Əliyev və Prezident Nursultan Nazarbayev tərəfindən qoyulub. Bu əlaqələr bu gün sürətlə inkişaf edir", - deyə Milli Məclis sədrinin birinci müavini vurğulayıb.

Azərbaycanın və Qazaxıstanın beynəlxalq və regional təşkilatlarda mövqelərinin üst-üstə düşdüyünü qeyd edən Ziyafət Əsgərov bildirib ki, Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın qəbul olunması münasibətlərimizin daha da inkişafı üçün geniş perspektivlər açır.

Türkiyə Böyük Millət Məclisi sədrinin müavini Mustafa Şentop, Rusiya Dövlət Duması sədrinin müavini Sergey Neverov, Özbəkistan parlamentinin sədri Nurdincan İsmoilov, İtaliya parlamenti Deputatlar Palatasının vitse-prezidenti Rozato Ettore və başqaları çıxış edərək Konfransın əhəmiyyətindən, Qazaxıstanın son illər əldə etdiyi uğurlardan bəhs ediblər.

Konfrans "Astana vektoru, təhlükəsizlik və əməkdaşlıq" və "Qazaxıstanın qlobal təklifləri: sülh və həmrəylik ideyalarının təbliği" mövzularında panel sessiyalarla işini davam etdirir.

Konfrans çərçivəsində Ziyafət Əsgərov Qazaxıstan Parlamenti Məclisinin sədri Nurlan Niqmatulinlə görüşüb.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında siyasi, iqtisadi, ticari münasibətlər, həmçinin parlamentlərarası əlaqələr müzakirə edilib. Söhbət zamanı ikitərəfli əlaqələrin daha da genişləndirilməsində parlamentlərin xüsusi rolu qeyd edilib.

**AZƏRTAC**

# XX əsr İrəvanda Azərbaycan ictimai-siyasi mühitinə baxış

**Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.**

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı İrəvan şəhəri də Azərbayanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbayan elm və mədəniyyət tarixinə İrəvani təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alimlər, ədəbiyyat və incəsənət xadimləri vardır. Mirzə Qədim İrəvani, Mirzə Məhəmməd İrəvani, Balağa İrəvani, Şeyx Yusif İrəvani, Mirzə Əli İrəvani, Şeyx Əbdülkərim İrəvani, Şeyx Mövla Həsən İrəvani, Mirzə Bağır İrəvani, Hacı Şeyx Əli Əsgər İrəvani, Mirzə Müslüm İrəvani, Fazil İrəvani, Aşub İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqa şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir.

Bütün dolanbac, keşməkeşli yollarına baxmayaraq, bəşər tarixi xalqlararası münasibətlərdə tədricən ədalət prinsipinin bərqərar olması ilə xarakterizə olunur. Bu baxımdan, XIX və XX əsrlərdə xalqımızın xəbis qonşumuz ermənilər tərəfindən üz-üzə qoyulduğu problemlər bu gün də həllini tapmamışdır. "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri əsasında Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölünməsi zəncirvarı reaksiyaya səbəb oldu: Qərbi Azərbaycan "Ermənistanlaşdı", Dərbənd Rusiyaya, Borçalı Gürcüstana "təhvil" verildi. Bütün bu "tarixi hadisələr" Azərbaycan xalqının və Azərbaycan mədəniyyətinin misli görünməmiş amansız və faktiki olaraq aramsız repressiyaları ilə müşayiət olundu.

1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda (indiki Ermənistan) apardıqları soyqırımı siyasəti nəticəsində əvvəllər ədəbi-estetik fikrimizin inkişafında böyük rolu olan İrəvanda Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni mühiti də dərin tənəzzülə uğramış, onun bir sıra nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Nəticədə İrəvanda Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni mühitinin aparıcı simalarının bir qismi cismani şəkildə qəddarcasına məhv edilmiş, bir qismi isə ölümdən canını qurtarmaq üçün Azərbaycan, Türkiyə, İran, Orta Asiya, Rusiya və digər ölkələrə üz tutmuşlar.

Etiraf etmək lazımdır ki, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulması bütün çatışmazlıqlarına baxmayaraq, İrəvan ədəbi mühitinin bərpasına dar çərçivədə rəva vermişdir. Lakin bəzən gizli, bəzən də açıq şəkildə özünü büruzə verən erməni şovinizmi əhatəsində bu proses heç də asan olmamışdır. Qeyrətli azərbaycanlı ziyalılar Cahangir Ələkbərbəyov, Məmmədəli Nasir, Bala Əfəndiyev, Mustafa Hüseynov, Rza Vəlibəyov, Mehdi Kazımov, Əhməd Əhmədov, Əkbər Rzayev, Bülbül Kazımova, Fatma Əfəndiyeva, Rza Şeyxzadə, Abbas Fərəcov, Mir Yusif Mir Babayev, Salman Rəhimov, Umud Süleymanov, Yusif Ziya, Məşəmməd Yusifzadə, Yusif Fikrət, Rza Axundov, Ələmdar Haşımov, Yunis Nuri, Bəhlul Yusifov, Həbib Məhəmmədzadə, Cəfər Vəlibəyov, Rəhim Allahverdiyev və başqaları İrəvanda Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni mühitinin bərpasında, inkişafında fədakarlıq göstərmiş, siyasi və milli iradə nümayiş etdirmişlər. Onların İrəvanda Azərbaycan dilində mətbuatın, teatrın, bir sıra mədəni-maarif ocaqlarının, türk yazarları bölməsinin, Yeni Türk Əlifba Komitəsinin İrəvan şöbəsinin yaradılmasında və tərəqqisində böyük xidmətləri olmuşdur. Bu ziyalıların səyi nəticəsində İrəvanda yeni ədəbi ziyalı qüvvəsi yaranmış və onlar erməni şovinizmi əhatəsində Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni mühitinin inkişafında böyük rol oynamışdılar.

Yersiz gəldi, yerli qaç! prinsipindən çıxış edən ermənilər azərbaycanlıların indi "Ermənistan" adlanan tarixi yurdunda xalqımızın yaratdığı milli-mədəni irsi hər vasitə ilə inkar etməyə can atırlar. Lakin sovet hakimiyyəti illərində ermənilər İrəvanda xalqımızın öz milli-mənəvi, sosial-mədəni irsini yaşatmağa, adət-ənənələrini davam və inkişaf etdirməyə hər vasitə ilə mane olmağa çalışsalar da, buna nail ola bilməmişlər. Bu, hər şeydən əvvəl mədəniyyətimizin dərin köklərə, sarsılmaz təmələ söykənməsi, dilimizin ən mürəkkəb mətləbləri və eyni zamanda ən incə poetik məqamları ifadə etmək imkanına malik olması, qədim tarix boyu ədəbi-bədii fikrimizin dünya mədəniyyəti ilə qırılmaz təmasda olması ilə bağlıdır. Bununla belə, Ermənistanda zaman-zaman müxtəlif səviyyələrdə gah açıq, gah gizli, gah rəsmi, gah da qeyri-rəsmi şəkildə Azərbaycan mədəniyyətini sıxışdırmaqla bağlı siyasət İrəvan ədəbi-mədəni mühitinin öz böyük potensialını bütöv şəkildə gerçəkləşdirməyə imkan verməmişdir.

"İrəvan Dövlət Azərbaycan Dram Teatrının 125 illik yubileyi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2006-cı il tarixli sərəncamında deyilir: "İrəvan Dövlət Azərbaycan Dram Teatrı keçməkeşli sənət yolu keçmişdir. İosif Stalinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbayan SSR-in Kür-Araz ovalığına köçürülmələri haqqında 1947-ci il 23 dekabr və "Kolxozçuların və başqa azərbayanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli qərarları ilə azərbaycanlıların İrəvandakı ata-baba torpaqlarından kütləvi deportasiyasında reallaşan qərəzli siyasət İrəvan teatrının da taleyindən yan keçməmişdir". Tarixi həqiqəti dəqiq və obyektiv şəkildə əks etdirən bu sərəncamdan da aydın olur ki, bu siyasət təkcə İrəvan teatrının deyil, eyni zamanda qədim diyarımızda yaşı bilinməyən tarixdən bəri formalaşıb inkişaf etmiş Azərbaycan mədəniyyətinin bütün sahələrinə ağır zərbə vurmuşdur.

Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan mərkəzlərindən biri olan İrəvan şəhərində və burada xalqımızın tarixinin müxtəlif dövrlərini özündə əks etdirən abidələr, qədim qala divarları, şərq-müsəlman memarlıq üslubunda tikilmiş binalar, məscidlər, mədəniyyət mərkəzləri, etnik özümlülüyü, dini etiqadı ehtiva edən qəbirlər, toponimlər, hidronimlər, tarixi yazılar azərbaycanlıların lap qədim dövrlərdən bu yerlərin aparıcı etnosu olduğunu bir daha təsdiq edir. Bütün bunlara baxmayaraq, həmin ərazilərin əsl sahibləri və sakinləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə onlar öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər. Belə ki, 1828-ci ildən başlayaraq, məlum dövlətlərin himayəsi və xüsusi qayğısı sayəsində ermənilərin müxtəlif dövrlərdə İrandan, Türkiyədən, Livandan, Suriyadan, Fransadan, Almaniyadan, Yunanıstandan və başqa ölkələrdən Cənubi Qafqaza, xüsusilə indi Ermənistan adlanan ərazilərə kütləvi şəkildə köçürülməsi bölgədə yeni münaqişələrin yaranmasına, azərbaycanlıların soyqrımına, deportasiyasına, terrora məruz qalmalarına zəmin yaratmış, xalqımız üçün daimi təhlükə mənbəyinə çevrilmişdir.

1890-cı ildə "Daşnaksütyun" terrorçu təşkilatının təsis edilməsi, ermənilərin siyasi, iqtisadi, hərbi cəhətdən hərtərəfli şəkildə dəstəklənməsi, 1905-1907, 1918-1920-ci illərin soyqırımları, Azərbaycanın tarixi torpaqları hesabına Ermənistan adlı dövlətin yaradılması, 1948-53-cü illər deportasiyası, nəhayət 1988-ci ildə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi şəkildə köçürülməsi və yaşadığımız dövrün gerçəklikləri - bütün bunlar hamısı tarixin danılmaz və inkaredilməz həqiqətləridir. Belə ki, 1918-ci ilin may ayında Ermənistanda qatı mürtəce mövqedən çıxış edən daşnakların hakimiyyətə gəlməsi nəticəsində azərbaycanlılara qarşı amansız və kütləvi terror, soyqırımı siyasəti ən qəddar metodlarla həyata keçirilməyə başladı.

1918-20-ci illərdə İrəvan şəhəri tarixinin ən gərgin və acınacaqlı dövrlərindən birini yaşamışdır. Erməni daşnaklarının hökmranlığı dövründə törədilən kütləvi qırğın aksiyaları zamanı İrəvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələri altüst edilərək xarabalığa çevrilmiş və 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir.

Erməni quldurları təkcə İrəvan şəhərində deyil, azərbaycanlılar yaşayan bütün bölgələrdə — Üçmüədzin, Zəngibasar, Vedi, Qəmərli, Qarabağlar, Basarkeçər, Dərələyəz, Ağbaba, Allahverdi və s. rayonlarda son dərəcə vəhşi üsullarla misli görünməmiş tarixi cinayətlər törətmişdilər. Belə ki, 1918-20-ci illərdə erməni millətçiləri tərəfindən 300-dən artıq azərbaycanlı kəndi yerlə-yeksan edilmiş, on minlərlə dinc sakin kütləvi şəkildə qırılmış, yüz minlərlə azərbaycanlı isə öz əzəli torpaqlarından məcburi surətdə qovularaq didərgin salınmışlar. Soydaşlarımız ölümün cəngindən xilas olmaq üçün İrana, Türkiyəyə, Azərbaycana və digər ölkələrə üz tutaraq sığınacaq tapmağa məcbur olmuşlar. Bununla da İrəvanda soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni həyatı tənəzzülə uğramış, onun görkəmli nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük rol oynamış Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Əhməd Rəcəbli, Əhməd Cəmil, Cəfər Xəndan, Heydər Hüseynov, Səid Rüstəmov, Bəhmən Axundov və başqa görkəmli şəxsiyyətlərin ailələri də bu dövrdə öz doğma ocaqlarını tərk etməyə məcbur olmuşlar.

Cənubi Qafqazda, o cümlədən "Ermənistanda" sovet hakimiyyətinin bərqərar olması siyasi-ictimai durumu dəyişdirdi, sosial münasibətlər sisteminə nisbi dinclik və sakitlik gətirdi. Bu heç də millətlərarası münasibətlərin xarakterinin dəyişməsindən, birdən-birə, gözlənilmədən ermənilərin düşmənçilik mövqelərindən çəkilib, sözdə bəyan olunduğu kimi, azərbaycanlılara beynəlmiləlçilik mövqeyində yanaşdıqlarından xəbər vermirdi. Sadəcə olaraq millətlərarası münasibətlərdə mövud olan ziddiyyətlər "dostluq" və "qardaşlıq" pərdəsi arxasında gizlədildi: ermənilərin xalqımıza düşmən münasibəti daha xəbis, daha gizli səiyyə kəsb etdi.

Əgər rəsmi mənbələrə əsaslansaq, 1920-ci il noyabr ayının 29-da Ermənistanda "sovet hakimiyyəti" qurulmuşdur. Amma Ermənistanda sovet hakimiyyəti öz spesifik xüsusiyyətlərinə malik idi. Bu, hər şeydən əvvəl, erməni kommunistlərinin və dövlət xadimlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü büruzə verirdi. Başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki birincisi, görünən, ikincisi, görünməyən tərəfləri var idi.

Görünən tərəf "proletar beynəlmiləlçiliyi, "bolşevizm ideyalarının həyata keçirilməsi", görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və antitürk siyasəti idi.

Ermənistanda sovet hakimiyyəti qurulmasının və Ermənistan kommunist partiyasının yaradılmasının 40 illiyi münasibətilə 1960-cı ildə çap olunmuş tezisdə deyilir: "Ermənistan zəhmətkeşləri qazandıqları bütün müvəffəqiyyətlər, azad, fərəhli və xoşbəxt həyatı üçün ölməz Leninə, onun yaratdığı Kommunist partiyasına, böyük rus xalqının, sosialist vətənimizdə yaşayan digər qardaş xalqların qərəzsiz yardımına borcludur".

Hətta kommunist beynəlmiləlçiliyi pərdəsinə bürünmüş ən qatı daşnak olan A.İ.Mikoyan yazırdı: "Daşnaklar zamanı Ermənistan yetimlər ölkəsi, göz yaşları ölkəsi, dilənçilik və vəhşi özbaşınalıq ölkəsi idi. "Daşnaksütyun" burjua millətçi partiyası özünün bütün siyasətilə imperializmin mənafeyinə xidmət edirdi. Daşnakların müsibətli siyasəti nəticəsində ölkə ağır fəlakət qarşısında qalmışdı".

İ.Stalin isə 1920-ci ilin noyabrında "Pravda" qəzetinin müxbirinə verdiyi müsahibədə deyirdi: "Daşnak Ermənistanı, heç şübhəsiz, onu Türkiyənin üstünə küşgürüb sonradan türklərin cəngində qoyub biabırcasına qaçan Antantanın fitnəkarlığının qurbanı kimi yıxıldı... Ermənistanın Rusiya ilə birləşməkdən başqa yolu qalmadı".

Bu fikirlərdən aydın olur ki, ermənilər heç vaxt azad düşüncəli xalq kimi yaşamamış, müstəqil dövlətə malik olmamış, zaman-zaman Amerika, Rusiya, Almaniya, Fransa, İngiltərə və b. dövlətlərin əlində siyasi alət rolunu oynamışlar. Həmin dövlətlər Qafqazda öz siyasi-strateji maraqlarını həyata keçirmək üçün erməniləri hər zaman dəstəkləmiş və onların "böyük Ermənistan" xülyası ilə yaşamasına rəvac vermişdilər. Yaşadığımız dövrün reallıqları da bir daha bunu təsdiq edir. Tarixi prosesi izləyərkən bir daha aydın olur ki, ermənilərin müxtəlif dövrlərdə apardığı işğalçılıq, qəsbkarlıq və genosid siyasəti son anda iflasa uğramış, erməni xalqının ağır faciələrinə səbəb olmuş, onun həyatının bütün sahələrində dərin böhrana meydan açmışdır. Məğlubiyyətin acı nəticələri ilə üzləşən ermənilər qurd libaslarını çox asanlıqla dəyişib, mələk cildinə girərək özlərini dünyanın ən humanist, məzlum, yazıq bir toplumu olduqlarını, bütün xalqlarla bərabərlik, dostluq və qardaşlıq şəraitində yaşamaq arzularını bəyan etmişlər.

Ermənilərin bütün xalqlarla dostluğunu və qardaşlığını elan edən mənbələrdən birinə nəzər yetirək: "Erməni xalqı, onun avanqardı olan Ermənistan Kommunist Partiyası SSRİ-nin bütün xalqları ilə öz dostluq və qardaşlığını çox yüksək qiymətləndirir və onu göz bəbəyi kimi qoruyurlar".

Ermənilərin guya bütün xalqlarla dostluq və qardaşlıq münasibətində olduğunu bəyan edən saxta və yalan ifadələr üzərində qurulmuş yüzlərlə bu cür mənbəyə rast gəlmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanın rəsmi dairələrinin yalan və riyakar təbliğatı nəticəsində formalaşmış görünüşü 70 illik Sovet hakimiyyəti dövründə zahirən ermənilər haqqında beynəlmiləlçi xalq təsəvvürü yaradırdı. Amma ermənlərin əsas fəaliyyəti gizlində olmuşdur. Əslində, daşnaklar N.Aqbalyan, A.Xatisyan, S.Tiqranyan, A.Camalyan, Q.Njde, A.Ozanyan, Hamazasp, Dro və bolşeviklər S.Şaumyan, L.Mirzoyan, A.Myasnikyan, Y.Əlixanyan, S.Kasyan, A.Xancyan, A.Amatuni arasında heç bir fərq olmamışdır. Birincilər "Daşnaksütyun" partiyasının, ikincilər isə Kommunist Partiyasının biletlərini gəzdirirdilər. Bunların hər ikisi ideoloji baxımdan eyni mənbədən - erməni şovinizmindən qidalanırdılar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra erməni kommunistləri 1918-1920-ci illərdə daşnakların azərbaycanlılara qarşı apardıqları siyasəti davam etdirdilər, lakin daha incə üsullara əl ataraq, maskalanmış, ardıcıl və düşünülmüş şəkildə öz məkrli planlarını həyata keçirməyə başladılar. Çoxsaylı tarixi faktlar sübut edir ki, erməni kommunist-bolşeviklər fürsət düşəndə daşnaklardan daha dəhşətli və amansız idilər. Daşnaklar Azərbaycan türklərini öz əzəli topraqlarından tam təmizləyə bilmədikləri halda, kommunistlər bunu çox incə metodlarla həyata keçirə bildilər. El ağsaqqalı Şamo Vəliyev erməni-daşnak siyasətinin daha müdhiş, qırmızı bolşevik pərdəsinə bürünmüş şəkildə davam etdiyini ifşa edərək azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdə deportasiyası haqqında demişdi: "Mikoyanın qələmi Andronikin qılıncından daha betərdir. Andronikin qılıncından qurtarıb qaçanlar ev-eşiklərinə qayıtdılar. Mikoyanın qələmi elə hökm yazıb ki, bir daha buraların üzünü görə bilməyəcəyik: deyəsən daşnaklarla sovetlər bir şeydir, onlar qılıncla, bunlar isə pambıq-sapla baş kəsiblər".

Tarixi proseslər daşnakçılığa nisbətən bolşevizmin daha dəhşətli bəla olduğunu bir daha təsdiq edir. Bolşevik cildinə bürünmüş Ermənistan hakimiyyəti sələflərinin məqsəd və məramlarını daha ardıcıl və sistemli şəkildə dövlət səviyyəsində icra edirdi.

**(davamı növbəti saylarımızda)**

**Cəlal ALLAHVERDİYEV,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent.**

# BƏŞƏRİYYƏT VAR OLDUQCA ÜZEYİR HACIBƏYLİNİN İRSİ YAŞAYACAQDIR

**Bu il, noyabr ayının 23-də böyük Türk dünyasının cahanşümul dahi bəstəkarı, Azərbaycan professional musiqisinin banisi, böyük musiqişünas - alim, dirijor, mahir publisist, incə yumora malik dramaturq, görkəmli pedaqoq, tərcüməçi, filosof, ictimai xadim, xeyirxah, əvəzolunmaz insan Üzeyir bəy Hacıbəylinin vəfatının 70-ci ildönümü idi. Üzeyir bəy 70 il bundan əvvəl bizi cismən tərk etsə də o, mənən hər zaman bizimlədir. Azərbaycan mədəniyyəti tarixində hansı sahəyə baxırıqsa, orada Üzeyir bəy Hacıbəylini görürük. Bu, böyük şəxsiyyət mədəniyyətimiz, incəsənətimiz üçün nələr etmədi? Bütün Şərqdə ilk operalar, operettalar, baletlərin bünövrəsini qoydu. Milli kadrlar yetişdirmək üçün musiqi məktəblərinin, musiqi texnikumunun, Azərbaycan Dövlət Konservatoriyasının təməlini yaratdı. Bütün musiqi kollektivlərinin - xalq çalğı alətləri "notlu" orkestrini, Dövlət xorunu, simli kvarteti, simfonik orkestri, mahnı və rəqs ansamblını, sazçı qızlar dəstəsini ərsəyə gətirdi. Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoyaraq, çox sayda bəstəkar və musiqişünaslar nəsli yetişdirdi. Onun tələbələrindən Asəf Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Niyazi, Soltan Hacıbəyov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Səid Rüstəmov, Cahangir Cahangirov, Məmməd Cavadov, Ədilə Hüseynzadə, Ağabacı Rzayeva, Şəfiqə Axundova, Hökumə Nəcəfova, Əminə Eldarova və yüzlərlə başqaları bu gün də xalq tərəfindən sevilən bəstəkar və musiqişünaslardırlar.**



Xalqı və milləti üçün bu qədər işlər görən Üzeyir bəy Hacıbəylinin həyat yolu heç də asan və hamar olmamışdır. Bir tərəfdən "sapı özümüzdən olan baltalar", digər tərəfdən əzəli və əbədi düşmənimiz olan ermənilər Üzeyir bəyə qənim kəsilmişdilər. Nəticədə, onların şeytani əməlləri Üzeyir bəyi bir çox xəstəliklərə düçar etmişdir. Azərbaycanın çörəyini yeyən, bu millətdən hər zaman yaxşılıq görən ermənilər bütün sayılıb-seçilən ziyalılarımız kimi Ü.Hacıbəylini də məhv etməyə çalışırdılar. 1937-ci ildə Üzeyir bəyin SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülərkən, ermənilər dinc durmur, ondan NKVD-yə donoslar yazırdılar. Onun Müsavat partiyasının üzvü olduğunu, Müsavat partiyasının "Ordan-Burdan" (nə qədər dayaz insandırlar ki, Üzeyir bəyin felyetonlarının sərlövhəsini qəzet kimi təqdim edirdilər) qəzetinin redaktoru olduğunu, "vətən xainlərinin" övladlarını işə götürməsini, qardaşının xaricdə yaşamasını və s. və i.a. məxfi təşkilata yazırdılar.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan sənədlərdən də görünür ki, 1937-ci ildə SSRİ Ali Sovetinə deputat seçilməsi üçün namizədliyi irəli sürüldüyü zaman Azərbaycan Dövlət Konservatoriyasının və Musiqi Texnikumunun partiya təşkilatının rəhbəri Kuranov, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının yerli komitə (meskom) sədri Akopyan, eləcə də Bakçiseraysev, Astvasaturov və digərləri NKVD-nin rəhbəri Sumbatova, Baksovetin nəzdində yerləşən Mərkəzi Seçki Komissiyasına Üzeyir bəy Hacıbəylidən iftira dolu məktublar göndərirdilər. Məsələn, 21.XI.1937-ci tarixli məktubunda Akopyan yazırdı: "Sizə yazıb bildirmək istəyirəm ki, Ü.Hacıbəyov Az. Dövlət Filarmoniyasında çalışır və Dövlət xoruna rəhbərlik edir. Eyni zamanda Azərbaycan Sovet Bəstəkarlar İttifaqının sədridir.

Az. Dövlət Filarmoniyasında ikinci ildir ki, xor fəaliyyət göstərir və 200-dən çox adam orada oxuyur. Xor Moskvada keçiriləcək Azərbaycan İncəsənəti dekadasına hazırlaşır. Xorun rəhbəri Hacıbəyov sovet ruhunda işləmir. Belə ki, o, xor üzvlərindən elə insanları irəli çəkir ki, onlar yad elementlərə malikdirlər və başqa məktəblərdən qovulublar. Məsələn, 1) Əmiraslanova Qüdrət - o, nəhəng neft sənayeçisinin qızıdır və onun qardaşı həbs olunub. 2) Məmmədbəyli Sima - Sovet hakimiyyəti qurulan zaman güllələnmiş polkovnikin qızıdır.

Üzeyir Hacıbəyovun şəxsiyyəti mənim üçün qaranlıqdır. Belə ki, eşitmişəm Üzeyir Hacıbəyov müsavat hökuməti zamanı "Ordan-Burdan" adlı müsavat qəzetinin redaktoru olmuşdur. Əməkdar incəsənət xadimi, dirijor İoanesyanın sözlərinə görə həmin qəzetin bir nüsxəsi xalq artisti Sarabskidədir. Hacıbəyovun qardaşı Müsavat Parlamentinin üzvü olmuşdur. Bolşeviklər Bakıya gələndə Üzeyir Hacıbəyov İrana qaçmış və bir neçə vaxtdan sonra Bakıya dönmüşdür. Onun Müsavat Parlamentinin üzvü olan qardaşı isə Parisə qaçmışdır. Və Üzeyir Hacıbəyov yeddi il müddətində Parisə, qardaşına pul göndərmişdir.

Xahiş edirəm Üzeyir Hacıbəyovun tərcümeyi-halı öyrənilsin və həqiqi üzü aşkar edilsin."

Ermənilər hətta Üzeyir bəyin "Azərbaycan" qəzetində dərc olunan 28 may 1919-cu il tarixli "Bir yaş" məqaləsini rus dilinə çevirərək NKVD-yə təqdim etmişdilər.

NKVD-nin erməni rəhbəri Sumbatov bütün bunlar barədə Azərbaycan K(b) P MK-nın I katibi Mir Cəfər Bağırova məruzə edirdi. O, ermənilərin məkrli niyyətlərini yaxşı anlayırdı və Üzeyir bəyi onlardan qorumağa çalışırdı. Ermənilərin donoslarına sanki cavab olaraq M.C.Bağırov rəsmi surətdə, 1.XII.1937-ci ildə keçirilən Azərbaycan K(b) P MK-nın büro iclasında göstəriş vermişdir: "Hacıbəyov nəhəng bəstəkar kimi nüfuz sahibidir və yeni "Koroğlu" operasının, Azərbaycan kəndlilərinin feodallara, türk sultanlarına qarşı mübarizəsini əks etdirən, ən uğurla və istedadla yazılmış musiqi əsərlərindən birinin müəllifi olduğu üçün Hacıbəyovun namizədliyi hələlik çıxarılmasın."

Ermənilərin bütün səylərinə baxmayaraq, 1937-ci ildə Üzeyir bəy Hacıbəyli SSRİ Ali Sovetinə deputat seçilir və ömrünün sonuna kimi deputat kimi xalqına xidmət edir.

5-15 aprel 1938-ci ildə Moskvada Azərbaycan İncəsənəti ongünlüyü keçirilir. Dekadaya hazırlıq işləri Ü.Hacıbəyliyə tapşırılır. Həmin dekadada M.Maqomayevin "Nərgiz", Qlierin "Şahsənəm" əsərləri ilə yanaşı Ü.Hacıbəylinin "Koroğlu" operası və "Arşın mal alan" operettası göstərilir. Qeyd etmək lazımdır ki, "Arşın mal alan" SSRİ-nin rəhbəri İosif Stalinin göstərişi ilə proqrama salınmışdı. Üzeyir bəyin əsərləri dekadada çox böyük uğur qazanır. İ.Stalin öz xahişi ilə "Koroğlu"ya iki dəfə tamaşa edir, onu "ən gözəl sovet operası" adlandırır. Dekadadan sonra Üzeyir bəy Hacıbəyli bütün sovet bəstəkarları içərisində birinci olaraq SSRİ Xalq artisti adına layiq görülür, "Lenin" ordeni ilə təltif edilir.

Ongünlük bitdikdən sonra, 17 apreldə bütün iştirakçılar Kremldə qəbul olunur və onlara İ.Stalinin adından böyük ziyafət verilir. Banketdə Üzeyir bəyin bir tərəfində Stalin, digər tərəfində Molotov və Voroşilov əyləşirlər. Stalin orada "Arşın mal alan" operettasından parçalar oxuyur. "Koroğlu" operasını çox bəyəndiyini söyləyir. Üzeyir bəyi novator bəstəkar adlandırır. Simfonik orkestrə xalq çalğı alətlərini əlavə etməsini yüksək qiymətləndirir və qeyd edir ki, sizin təcrübənizdən başqa bəstəkarların da bəhrələnməsini tövsiyə etmişik. Orada söhbət zamanı Voroşilov deyir ki, "Koroğlu" kimi daha iki opera yazın, Stalin isə bu sözləri eşidən kimi "siz iki deyil, dörd belə opera yazmalısınız" deyir. Sonra əlavə edərək söyləyir: "Yaxşı olar ki, xalq çalğı alətlərində ifaçıların Ümumittifaq müsabiqəsi keçirilsin və həmin yarışmada komissiyanın sədri siz olasınız. Üzeyir bəy məmnuniyyətlə təklifi qəbul edir. Söyləyir ki, bunun üçün ciddi hazırlıq lazımdır. İ.Stalin oradaca müsabiqənin keçirilmə tarixini təyin edir. Oktyabr, 1939-cu il...

1 oktyabr 1939-cu ildə Moskvada başlayan müsabiqə 15 oktyabra qədər davam edir. Müsabiqənin sədri Üzeyir bəy Hacıbəyli olur. Münsiflər heyətinin üzvləri isə Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev və başqa respublikaların musiqiçiləri, professorları idilər. Müsabiqənin gedişi zamanı respublika səviyyəsindəki yarışlardan keçməyən beş erməni əsilli Azərbaycan vətəndaşı SSRİ xarici işlər naziri Molotovun adına teleqram göndərirlər. Onlar teleqramda Ü.Hacıbəylinin münsiflər heyətinin sədri seçilməsinə etiraz edirlər, onu millətçilikdə günahlandırırlar.

Molotov o zaman SSRİ-də Stalindən sonra ikinci sima idi. O, dostunu, düşmənini tanısın deyə, teleqramı Üzeyir bəyin özünə ünvanlayır. Üzeyir bəy isə bu xəbis, məkrli ermənilərin əməllərindən əsəb sarsıntısı keçirir. Özünü pis hiss edən Üzeyir bəyə həkim çağırırlar. Analiz götürülür və qanında 0.3 faiz şəkər aşkar olunur. Orada diabet xəstəliyinin təməli qoyulur.

İllər keçdikcə xəstəlik şiddətlənir. 1947-ci ildə xəstəlik daha da kəskinləşir. 14 sentyabr 1947-ci ildə Mir Cəfər Bağırov Üzeyir bəy Hacıbəylinin müalicəsi ilə bağlı İslamzadə və Q.Məmmədovun adına rəsmi məktub imzalayır. Məktubda deyilir: "Xahiş edirəm səhiyyə naziri yoldaş Fərəcova ilə birgə yoldaş Üzeyir Hacıbəyova yüksək dərəcədə ixtisaslaşdırılmış konsilium təşkil edilsin. Müalicə ilə bağlı nəzərə alınmış qərarların nəticələri Azərbaycan K(b) P MK-ya təqdim olunsun. 15 noyabr 1947-ci ildə Azərbaycan SSR səhiyyə naziri Kubra Fərəcova M.C.Bağırova arayış göndərir. Arayışda yazılır: "Sizin göstərişiniz əsasında akademik Üzeyir Hacıbəyova bu tərkibdə konsilium təşkil edilmişdir: Terapevtlər, professorlar - E.Qorov, Afonski, Yaqubov, Əfəndiyev və həkim Osipyan; okulistlər - professor Musəbəyova və həkim Axundovanın iştirakı ilə konsilium keçirilmişdir. Konsiliumun nəticəsinə görə xəstə şəkər diabeti, hipertoniya (damar xəstəlikləri) və ürək astmasından əziyyət çəkir. Akademik Hacıbəyov Xüsusi Müalicə Sanitariya İdarəsinin xəstəxanasına yerləşdiriləcək, orada xüsusi müalicə alacaq və nəzarət ediləcək. Onun səhhəti barədə vaxtaşırı Sizə məruzə olunacaq".

Bəli, Üzeyir bəyi "Leçkomissiya" adlanan xəstəxanaya yerləşdirirlər. Dahi bəstəkarın konsiliumunun həkimlərinin tərkibində olan Osipyan familiyalı erməni həkim böyük sənətkarı müalicə etməyə başlayır. Ermənilərin çoxdan axtardıqları fürsət əllərinə düşür. Əlverişli məqamı fövtə verməyən Osipyan təcili olaraq Üzeyir bəyə insulin iynəsi təyin edir və xəstəni çox ciddi pəhrizdə saxlayır. Onun çörək, kartof, düyü, şirniyyat yeməsinə qadağa qoyur. Bunun nəticəsində Ü.Hacıbəyli bir ay ərzində 18 kq arıqlayır. Orqanizmi zəifləyir və ürək tutmaları başlayır.

Üzeyir bəy Hacıbəylinin böyük baldızının oğlu, sənətkarın şəxsi katibi olmuş və dahi bəstəkarın ev-muzeyi açılan gündən ömrünün sonuna kimi ulu öndər Heydər Əliyevin göstərişi ilə direktor təyin edilən professor Ramazan Xəlilov mənə danışmışdı ki, "bir gün Osipyanın yanına gəlib dedim: "Doktor, mən "Nauka i jizn" jurnalında oxumuşam ki, şəkər xəstəsinə insulin vurulursa, ona pəhriz təyin etmək lazım deyil. Xəstə ürəyi istəyən nemətlərdən istifadə edə bilər. Endokrinoloq İdelson insulin preparatından istifadə edən diabet xəstələrinə pəhriz təyin etmir, hətta mürəbbə ilə çay da içməyə icazə verir. Osipyan üzünü turşudaraq "biz Üzeyir bəyin üzərində eksperiment keçirə bilmərik" dedi." Beləliklə də, Osipyanın məkrli niyyəti çox ağır nəticələrə səbəb olur.

R.Xəlilov danışırdı ki, mən dostların vasitəsilə Sovet ordusunun baş terapevti Vovsini qeyri-rəsmi olaraq müayinə üçün Üzeyir bəyin yanına gətirdim. O, Ü.Hacıbəylini hərtərəfli müayinə etdikdən sonra dərmanlar yazdı və dedi ki, ürək-damar sistemi səhv müalicə nəticəsində həddindən artıq zəifləyib, onu xilas etmək mümkün olmayacaq. Amma yazdığım dərmanların köməkliyi ilə Üzeyir bəyi Bakıya rahat apara biləcəksiniz. Orada da bir neçə ay yaşayacaq.

Bakıda 14 sentyabr 1948-ci ildə yenə də professorlar Afonski, Yeqorov, Abdullayev, Efendiyev, həkimlər Arqentov, İdelson, Osipyan, Veysov, Əhmədovun iştirakı ilə konsilium təşkil edirlər. Və o qənaətə gəlirlər ki, Ü.Hacıbəyli ürək astması stadiyasında hipertoniya xəstəliyi, arterioskleroz, miakardio-skleroz, nefro-skleroz, diabet və beyin damarlarının trombozu xəstəliklərindən əziyyət çəkir. Xəstəyə sakitlik, medikamentlər və pəhriz müalicəsi təyin edilir. Xüsusi həkimlər - professor Yeqorov və həkim İsmayıl Veysov Üzeyir bəyi müalicə edirlər.

Lakin bütün səylərə baxmayaraq Üzeyir bəy Hacıbəylinin vəziyyəti yaxşılaşmır.

Oktyabr ayının ikinci yarısında Üzeyir bəyi öz evinə gətirirlər. Həkimlərin çabaları bir nəticə vermir. Dahi sənətkarı xilas etmək mümkün olmur. Noyabr ayının 23-də, gecə saat 2-də Azərbaycan xalqının böyük oğlu əbədi olaraq gözlərini yumur.

M.C.Bağırovun göstərişi ilə Ü.Hacıbəylinin cənazəsi Azərbaycan Elmlər Akademiyasının böyük salonunda qoyulur. İnsanlar dahi bəstəkarla vidalaşmaq üçün ucu-bucağı görünməyən növbələrə düzülərək, əvəzolunmaz sənətkarla son görüşə gəlirlər. 24 noyabr günü ümumxalq matəmi kimi tarixə daxil olur. Dövlət və hökumət adamları, ziyalılar, gənclər, ahıllar, əlillər, uşaqlar, məktəblilər güllər, əklillər gətirirlər. İnsan axınının ardı-arası kəsilmir. Bu, sevimli bəstəkara xalq məhəbbətinin təzahürü idi. Küçədə iynə atsan, yerə düşməzdi. Şahidlərin dediyinə görə, belə bir dəfn mərasimi heç vaxt olmamışdı.

Üzeyir bəyin tabutunu Akademiyanın binasından Azərbaycanın o zamankı rəhbəri Mir Cəfər Bağırov və digər dövlət və hökumət adamları çiyinlərində çıxarırlar. Fəxri Xiyabana qədər dahi bəstəkarın tabutunu əllər üstündə aparırlar. Üzeyir bəy Hacıbəyli son mənzilə canından çox sevdiyi Azərbaycan xalqının çiyinlərində gedir, doğma torpağa tapşırılır. Məzarının üstünə 400-dən çox əklil qoyulur.

Üzeyir bəy Hacıbəylinin məzarının başında qırx gün hüquq-mühafizə işçilərindən ibarət fəxri qaraul dayanır. Keçmiş Sovet İttifaqının hər yerindən, rəhbər işçilərdən çoxlu başsağlığı teleqramları gəlir.

Bəli, Azərbaycan xalqı dahi oğlunu son mənzilə belə yola salmışdır. Üzeyir bəy ölümü ilə ölümsüzlüyə qovuşmuşdur.

Bu gün də Üzeyir bəy Hacıbəyliyə olan xalq məhəbbəti səngimir. Nə qədər bəşəriyyət var, Azərbaycan xalqı mövcuddur, ölməz Üzeyir bəy də, onun dəryaları xatırladan yaradıcılıq irsi də daim yaşayacaqdır.

**Səadət QARABAĞLI,**
**Üzeyirbəyşünas.**

# ANA ROLLARININ MAHİR İFAÇISI

## *(Xalq artisti Nəcibə Məlikovanın ekran yaradıcılığı haqqında)*



**...O, Azərbaycan televiziyasının ilk diktoru kimi 14 fevral 1956-cı ildə efirə çıxdı. "Göstərir Bakı!" kəlmələri ilə ekran qarşısına yığılan minlərlə izləyicini salamladı, Azərbaycan televiziyasının fəaliyyətə başlaması münasibətilə təbrik etdi. İlk çıxışından füsunkar gözəlliyi, aydın diksiyası, məlahətli səsi ilə izləyicilərin qəlbinə yol tapdı.**

Kinoda qazandığı uğurlar isə yaradıcılığının yeni səhifələrinə çevrildi, daha da şöhrətləndi, nurlu sənətkar imzasını tanıtdı. Ekrandakı Ana obrazları humanizmə, məhəbbətə, ülviyyətə çağırış notları idi sanki... Hamı onu Ana rollarının mahir ifaçısı kimi tanıdı. Əvəzsiz aktyor oyundakı Ananın bədii surətlərini böyüklər də sevdi, uşaqlar da... "Ögey ana" filmindəki Dilarə obrazı ona əfsanəvi şöhrət bəxş etdi.

Yaradıcılığı boyu gərgin əməyi ilə fərqli rollar yaratdı. Çəkiliş meydançalarına səhnədən gəlsə də, realist aktyor oyununda kino poetikasının ahəngi aydın duyulurdu. Milli kinomuzda üslubu, nəhayətsiz axtarışları ilə özünəməxsus aktyor məktəbinin təməlini qoydu. "Fətəli xan"da Xədicə, "Leyli və Məcnun"da Səlimə, "Əhməd haradadır"da Nərgiz, "Arşın mal alan"da Cahan xala, "Qanun naminə"də Zərintac kimi rolları milli kino sənətimizə bəxş etdiyi ən qiymətli töhfələrdir.

İlk diktoru olduğu Azərbaycan televiziyası da sənətkar taleyinə yeni bucaqdan işıq saldı. "Aygün" bədii televiziya filmində Aygün, "Topal Teymur" televiziya tamaşasında Dilşad kimi rolları yaradıcılığında silinməz iz qoydu. Bu sənətkarı indi də xatırlayanlar az deyil... Milli televiziyamızın ilk diktoru, unudulmaz rollar ifaçısı Nəcibə Məlikova!..

25 oktyabr 1921-ci ildə Bakının Buzovna kəndində ziyalı ailəsində dünyaya gəlib. Atası Haşım bəy Saqib publisist yazıları ilə dövrünün qəzet və jurnallarında tez-tez çıxış edib. O, Saqib təxəllüsü ilə aşiqanə qəzəllər də yazıb. Səməd Mənsur, Mikayıl Müşfiq, Əliağa Vahidlə yaxın dostluq münasibətləri olub. Haşım bəy Saqib, ömür-gün yoldaşı Xoşsima xanım övladlarının sağlam ruhda böyüməsinə, təlim-tərbiyəsinə xüsusi önəm veriblər.

Nəcibə Məlikova ilk təhsilini Buzovnada alır. Məktəbli ikən aktyor olmaq arzusu ilə yaşayır. Bakıda orta təhsilini bitirdikdən sonra Bakı Teatr Texnikumuna daxil olur. 1940-1943-cü illərdə Xalq artisti Fatma Qədrinin kursunda aktyor sənətinin sirlərinə yiyələnir. Təyinatla Gəncə Dövlət Dram Teatrında aktyor işləyir. Bu teatrın səhnəsində peşəkar aktyor kimi ilk sənət addımlarını atır.

Gəncə teatrında bir neçə il işlədikdən sonra Bakıya qayıdır. Ali təhsil almaq üçün Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olur. Adil İsgəndərov, Rza Təhmasib kimi sənətkarlardan ustad dərsləri alır. 1951-ci ildə institutu bitirir.

1952-ci ildən sənət taleyini Milli Dram Teatrına bağlayır. Müxtəlif illərdə teatrın səhnəsində klassik və müasir Azərbaycan dramaturqlarının, eyni zamanda dünya dramaturqlarının əsərlərində yaddaqalan rollarda çıxış edir. "Şeyx Sənan"da Xumar, "Səyavuş"da Firəngiz, "Kəndçi qızı"nda Ayxanım, "Büllur saray"da Qönçə, "Vaqif"də Xuraman kimi onlarca rollarda maraqlı və yaddaqalan obrazlar yaradır.

Nəcibə Məlikovanın sənət yolunu kinodan ayrı təsəvvür etmək çətindir. Ekran obrazları onun aktyor yaradıcılığının yeni inkişaf mərhələsidir. Tamaşaların böyük əksəriyyəti zamanında lentə köçürülmədiyindən bu gün Nəcibə Məlikovanın səhnə sənətkarlığını yalnız tədqiqatlarda, xatirələrdə görmək mümkündür. Bu baxımdan çəkildiyi filmlər onun aktyor sənətkarlığını özündə qoruyan ən qiymətli örnəklərdən biridir.

Nəcibə Məlikova ilk dəfə Yefim Dziqanın "Fətəli xan" filmində çəkiliş meydançasında görünür. Oynadığı Xədicə obrazı gənc aktrisanın çoxyönlü istedadını, sənətkarlıq səviyyəsini aydın göstərir. Dövrünün görkəmli aktyorları Ələsgər Ələkbərov, Leyla Bədirbəyli, Möhsün Sənani, Sidqi Ruhulla, Rza Təhmasibin çəkildiyi filmdə yadda qalmaq hər aktyora nəsib olmur. Lakin Nəcibə Məlikova bu çətin sınaqdan məharətlə çıxır. O illərdə Bakı sənət mühitində hələ kifayət qədər tanınmayan gənc aktrisa ifadəli oyunu ilə ekran uğuru qazanır.

"Ögey ana" filmindəki Dilarə obrazı Nəcibə Məlikovanın yaradıcılığında ən uca zirvələrdən biridir. Maraqlıdır ki, "Ögey ana"da yaşadığı acılar, ağrı və iztirablarla çox da uzaq olmayan illərdə qarşılaşır. Belə ki, aktrisa Gəncə teatrında işlədiyi zaman ömür-gün yoldaşını itirən bir nəfərlə ailə qurur. Nəcibə Məlikova onu saf məhəbbətlə sevir, yeganə oğluna doğma ana münasibəti bəsləyir. Dünyaya gələn övladına atası Haşım bəyin xatirəsinə ehtiram kimi Saqib adını verir. Qayınanası və ömür-gün yoldaşı Nəcibəni övladlara qarşı ayrı-seçkilik etməsində günahlandırırlar. Az sonra ailədə onun səhnəyə çıxmasına qadağa qoyulur. Səhnəni həyatı qədər sevən Nəcibə qurduğu ailə həyatına son qoyaraq oğlu Saqiblə Bakıya gəlir.

Nəcibə Məlikovanın ailə faciələrini Adil İsgəndərov kinorejissor Həbib İsmayılovla bölüşür. Və bu mövzuda ona film çəkməyi məsləhət görür. Mövzu Həbib İsmayılovun da sənətkar marağına səbəb olur. O, kinodramaturq Anna Yanla Adil İsgəndərovun təklif etdiyi mövzunu qələmə alır. Və düşünmədən Dilarə roluna Nəcibə Məlikovanı çəkməyi qərarlaşdırır. Kinorejissor sərrast seçimində yanılmır.

Nəcibə Məlikova Dilarənin iztirabları ilə həyatda üz-üzə gəldiyindən bu obraza ruhən çox yaxın idi. Lakin aktrisa ifa tərzində prototip çərçivəsində qalmır. Qüvvətli bədii ümumiləşdirmələrlə ülvi ana obrazını yaradır. Unudulmaz sənətkar çəkilişlərdə Dilarənin övlad sevgisini ön plana çəkir. Əlahəzrət sözün belə ifadəsində aciz qaldığı hissləri, duyğuları gözlərində, mimikalarında canlandırır.

O, İsmayılla yaranan mürəkkəb münasibətlərdə ana məhəbbətini, ana qürurunu şərəflə qoruyur. Nəcibə Məlikova—Dilarə ögey ana kimi deyil, doğma ana timsalında sonsuz tamaşaçı məhəbbəti qazanır.

İlk dəfə 9 dekabr 1958-ci ildə ekranlara çıxan "Ögey ana" əsl sənət hadisəsi olur. Qısa müddətdə filmə 21 milyondan artıq tamaşaçı baxır. 1959-cu ildə Kiyevdə keçirilən Ümumittifaq kino festivalında "Ögey ana" üçüncü mükafata layiq görülür. Əməkdar incəsənət xadimi, kinorejissor Həbib İsmayılovun bədii film janrındakı ekran debütünün uğurunda, heç şübhəsiz, Nəcibə Məlikovanın xüsusi yeri, sənətkar əməyi vardı...

İlk diktoru olduğu Azərbaycan televiziyası ilə Nəcibə Məlikova həyatı boyu yaxın yaradıcılıq münasibətlərində olur. 1960-cı ildə kinorejissor Kamil Rüstəmbəyovun quruluş verdiyi "Aygün" bədii televiziya filmində Nəcibə Məlikova baş qəhrəman — Aygün obrazını ustalıqla yaradır. Aygünlə aktrisanın həyatında səsləşən məqamlar olsa da o, bu obrazı bədii təfəkkürlə yeni yozumda təqdim edir.

Ömür-gün yoldaşının içkiyə qurşanması ilə Aygünün üzləşdiyi ağır tale Nəcibə Məlikovanın aktyor yaradıcılığında orijinal həllini tapır. O, ailə burulğanlarında çırpınan Aygünü həqiqi boyalarda əks etdirir. Poetik aktyor ifası ilə Aygünün saf məhəbbətinə, mərdliyinə, sədaqətinə izləyiciləri inandırmağı bacarır. Bu inam Nəcibə Məlikovanın yüksək sənətkarlığından, nəhayətsiz axtarışlarından, gərgin əməyindən qaynaqlanır.

1963-cü ildə Nəcibə Məlikova sənət taleyində xüsusi rol oynayan Adil İsgəndərovdan "Əhməd haradadır" filminə dəvət alır. Aktrisanın yaradıcılıq imkanlarına yaxşı bələd olan rejissor ona Nərgiz ananın rolunu həvalə edir. Ekranda, adətən, lirik-dramatik Ana rolları oynayan Nəcibə Məlikova bu filmdə yeni ampluada görünür. Yaradıcılıq üslubunun əsas xüsusiyyətlərindən biri kimi Nəcibə Məlikova Nərgizi canlı, həyati, realist planda yaradır. Nəcibə Məlikova obrazın psixoloji məzmununa, xarakterinə söykənərək komediya janrında yeni sənətkarlıq zirvəsi fəth edir. Onun ifasında milli kolorit olduqca qüvvətlidir.

Adətən, komik rolları oynayan aktyorlar tamaşaçıda gülüş yaratmaq üçün müxtəlif qrim ünsürlərinə meyil edirlər. Nəcibə Məlikova isə, əksinə, bu kimi vasitələrə əl atmır. Onun yaratdığı gülüş komik ştamplardan, sınanmış qəliblərdən çox uzaqdır. Nəcibə Məlikovanın ifa tərzində aktyor sənətkarlığı ilə aktyor texnikası eyni nöqtədə birləşir. İfadəli, yaddaqalan cizgilərlə izləyicilərdə mənalı, incə gülüş yaradır.

Unudulmaz sənətkarın aktyor oyununda diqqətçəkən cəhətlərdən biri də ekranda son dərəcə ciddi olmasıdır. Zahiri effektlərə uymayan Nəcibə Məlikova təbii komizmi ilə ali sənətkar məqsədinə nail olur.

"Əhməd haradadır" filmi keçmiş SSRİ Dövlət Kinematoqrafiyasında birmənalı qarşılanmır. Filmin ünvanına kəskin tənqidlər səslənir. Onun nümayiş sayına, uğuruna şübhə ilə yanaşırlar. Lakin film ekranlara çıxandan sonra qısa müddətdə bütün proqnozları alt-üst edir. "Əhməd haradadır" keçmiş sovet prokatında ən çox tamaşaçı toplayan filmlər sırasında yer alır.

"Əhməd haradadır" filmində Nəcibə Məlikova ilə tərəf-müqabil olan Əməkdar artist, kinorejissor Elxan Qasımovdan aldığım müsahibədən:

*"Nəcibə Məlikova deyəndə ilk növbədə "Əhməd haradadır" filmini xatırlayıram. Çünki onunla 1962-ci ildə bu filmdə bərabər çəkilmişəm. Mən şofer Əhmədi, Nəcibə xanım isə Nərgiz xalanı oynayırdı. Nəcibə xanımla tanışlığım beləcə o filmdə başladı. Və uzun illər davam etdi. Ailəsi ilə, oğlu ilə ünsiyyətdə oldum.*

*55 il keçməsinə baxmayaraq, sənət taleyimə minnətdaram ki, nə yaxşı həmin rolu oynadım. Nəcibə xanım kimi gözəl bir aktrisa ilə tərəf-müqabil oldum. Filmin çəkilişlərində sanki nağıllar dünyasında idim. Bu dünya mənə ruh verdi. Nəcibə Məlikova tək deyildi axı... Məmmədrza Şeyxzamanov, Mustafa Mərdanov, Lütfəli Abdullayev, Ağahüseyn Cavadov, rejissor Adil İsgəndərov, bəstəkar Rauf Hacıyev, Sabit Rəhman kimi dramaturqla yaxın ünsiyyətdə oldum. Çəkilişlər ətrafındakı maraqlı söhbətlərimizi indi də unutmamışam. Nəcibə xanımla bağlı xatirələr çoxdur.*

*Heç kim onun 42 yaşında olmağına inanmırdı. Nəcibə xanımın çəkildiyi epizodlarda həmişə tamaşaçılar yığılardı. Hamı onu "Ögey ana" filmindəki Dilarə obrazı ilə çox yaxşı tanıyırdı. Maraqla kamera qarşısındakı məharətli aktyor oyununa baxırdılar. Təbii ki, hələ onu Nərgiz xala kimi tanımırdılar. Çəkilişləri izləyən yerli sakinlərin "Dilarə!", "Ögey ana!", "Nəcibə xanım!" kimi nidaları tez-tez eşidilirdi.*

*Əlbəttə, çəkilişlər zamanı gözlənilməz hadisələr də baş verirdi. Nəcibə xanım maşını sürərkən az qaldı qəza baş versin. Mən hadisənin qarşısını aldım...*

*Xatirələr çoxdur... Bu gün də fərəh duyuram ki, 55 il öncə Nəcibə xanımla bir filmdə çiyin-çiynə işləmişəm. O indi haqq dünyasındadır, amma sənəti yaşayır...".*

1965-ci ildə Xalq artisti, kinorejissor Tofiq Tağızadənin lentə aldığı "Arşın mal alan"da Nəcibə Məlikova Cahan xala roluna çəkilir. 20 il öncə ekranlaşdırılan bu əsərdə həmin rolu yüksək ustalıqla oynayan Münəvvər Kələntərli filmin bir qrup yaradıcı heyətilə birgə dövrünün ən yüksək ali mükafatına - SSRİ Dövlət mükafatına layiq görülmüşdü.

Özünəməxsus üslubda Nəcibə Məlikova Cahan xalanı zəngin xarakterik çalarlarla yaratmağa müvəffəq olur. Bu rolda Nəcibə Məlikovanın qazandığı uğurun başlıca səbəbi təqlidçilikdən uzaq olması, obrazı öz yozumunda təqdim edə bilməsidir.

Nəcibə Məlikovanın "Arşın mal alan" filmindəki Cahan xala obrazı nüfuzlu sənətşünasların rəylərində layiqli qiymətini tapır. Bu kimi rəylərdə Nəcibə Məlikovanın yüksək səviyyəsi, təbii ifası yeni ekran uğuruna çevrilir, "Arşın mal alan" filmi 1967-ci ildə Tbilisidə I Zaqafqaziya və Ukrayna respublikaları filmlərinin "Prometey-67" zona kinofestivalında "Ən yaxşı musiqili filmə görə" Gürcüstan SSR Bəstəkarlar İttifaqının Prizinə layiq görülür.

Unudulmaz sənətkar 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Nəcibə Məlikova 27 iyul 1992-ci ildə vəfat edib. Məzarı ikinci Fəxri xiyabandadır.

İllər keçsə də Nəcibə Məlikovanın özünəməxsus yeri milli kino tariximizdə aydın görünür. İştirakı ilə çəkilən filmlərə izləyicilər maraqla baxır. Onun misilsiz aktyor oyunu, ifadə boyaları gözəlliyinə, təravətinə xüsusi bir rəng qatır. Nəcibə xanıma unudulmazlıqla, əbədi sevgi bəxş edir.

Nəcibə Məlikova sənətinin ənənələri bu gün də yeni bir məzmunda yaşayır. Milli kinomuzun sabahına uzanan enişli-yoxuşlu yollarda işığını, nurunu əsirgəmir...

**Hatəm ƏSGƏROV,**
**rejissor.**

# Barattson şirkətində Açıq Qapı günü keçirildi

**Bu günlərdə Barattson şirkəti 4 illik akademik fəaliyyəti, CFA hazırlığı sahəsində 8 uğurlu təcrübəsinə əsaslanaraq CFA Charterholder statuslu təlimçiləri ilə növbəti "CFA Level I" June 2019 imtahanına hazırlaşmaq istəyən namizədlər üçün sınaq imtahanı və Açıq Qapı günü təşkil etdi.**




Tədbirdə Barattson Biznes və Maliyyə məktəbinin rəhbəri Elşən Rəhimov RCFA imtahanı haqqında ətraflı məlumat verərək imtahanı uğurla keçən namizədlər üçün mümkün iş imkanları və perspektivlər, maliyyə və mühasib peşəsinin əhəmiyyəti və maliyyə idarəetməsində, biznesin inkişafında, risklərin idarəolunmasında beynəlxalq kvalifikasiyalı ACCA, CİMA, CFA və digər imtahanların əhəmiyyəti haqqında geniş söhbət açaraq dedi: "CFA proqramı (Chartered Financial Analyst) - Sertifikatlaşdırılmış Maliyyə Analitiki CFA institutu tərəfindən investorlar və maliyyə peşəkarlarına təklif edilən peşə mandatıdır. CFA investisiya layihələrinin idarə edilməsi və qiymətləndirilməsi, maliyyə analizi, portfelin idarə edilməsi, səhmlər, istiqrazlar və törəmə alətləri ilə əlaqəli mövzuların geniş silsiləsini və maliyyənin digər sahələrinə dair ümumi bilikləri əhatə edir. CFA dərəcəsinə layiq görüldükdən sonra namizədlər üçün maliyyə meneceri, risk meneceri, portfel meneceri, tədqiqatçı, məsləhətçi, treyder, büdcənin planlaşdırılması, iqtisadçı, analitik və. s. kimi bir çox karyera imkanları yaranır. İnvestisiyaların təhlili və investisiya portfellərinin idarəçiliyi sahəsində güclü baza bilikləri formalaşdıran "CFA Level I" imtahanına hazırlıq kursu 9 dekabr 2018-ci il tarixində başlayacaq .Mən hər bir iştirakçıya müvəffəqiyyət arzulayıram".

CFA Level I hazırlıq kursunun təlimçilərindən Cəlal Bağışov, Elnur Bədəlov, Eldar Quliyev imtahana hazırlıq prosesi, dərs materialları və CFA Level I imtahanını uğurla verən namizədlər üçün açılan geniş iş imkanları haqqında fikirlərini bölüşdükdən sonra CFA Level I June 2019 imtahanına hazırlıq çərçivəsində təşkil olunan sınaq imtahanında ən yüksək nəticə göstərərək hazırlıq kursuna tam ödənişsiz qəbul olan İlkin Sultanov təltif olundu. Bununla yanaşı CFA Level I June 2018 imtahanını uğurla keçən 6 namizədə Barattson tərəfində təqdim olunan xidmətlərdən yararlana biləcək 500 AZN dəyərində təhsil vauçeri təqdim olundu.

Mötəbər qonaqlar, CFA imtahanına hazırlaşan namizədlər, təlimçilər və media nümayəndələrinin iştirak etdiyi tədbir namizədləri maraqlandıran sualların təlimçilər tərəfindən cavablandırılması və mövzu ətrafında geniş diskusiya ilə yekunlaşdı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Arsen Baqdasaryan Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyana müraciət edib



**2014-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Ağdam rayonu ərazisində qoşunların qarşıdurma xəttində təxribat törətməyə cəhd edərkən saxlanılmış və Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilmiş Ermənistan hərbçisi, 1994-cü il təvəllüdlü Baqdasaryan Arsen Eduardoviç Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyana müraciət ünvanlayıb.**



AZƏRTAC Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının saytına istinadla xəbər verir ki, Arsen Baqdasaryan özünün yazdığı, əsir-girovların "hamının-hamıya" prinsipi ilə azad olunması ilə bağlı müraciətinin ictimaiyyətə açıqlanmasını Dövlət Komissiyasından xahiş edib.



Həmin müraciətin mətni ictimaiyyətin diqqətinə təqdim olunur.

**AZƏRTAC**

# Kitabxana mütəxəssisləri üçün təşkil olunmuş növbəti treninq başa çatdı

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsinin və Yasamal rayon MKS-nin təşkilati dəstəyi ilə növbəti treninq məşğələlər təşkil olunmuşdur.**



Treninqin əsas məqsədi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 aprel tarixli Sərəncamı ilə yaradılmış "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nda, habelə Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Facebook səhifəsi və YouTube kanalında fəaliyyət göstərən "Kitabsevər uşaqlar" layihələrinin davamlılığının təmin edilməsi olmuşdur.

2018-ci ilin 12-17 noyabr tarixlərində təşkil olunmuş məşğələlərdə 21 kitabxana mütəxəssisi iştirak etmiş, onlardan 4-ü distant təhsil almışdır. Treninq iştirakçıları "Kitabxanalarda tətbiq olunan innovativ layihələr" (Pərviz Kazımi), "Gənclər sosial şəbəkələrdə" (Oruc Quliyev), "Azərbaycan ədəbiyyatının virtual kitabxanası:ədəbiyyatın seçilməsi, təhlükəsizlik məsələləri, müəllif hüquqları" (Emin Bədəlov), "MKS-lərin sosial şəbəkələrdə fəaliyyəti" (Gülünaz İsgəndərova), "Kitabxanalar və oxucuları informasiya cəmiyyətində" (Lətifə Məmmədova) və digər mövzularda məruzələr dinləmişlər.

Treninqin sonuncu günü kitabxana mütəxəssislərinə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası və YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsinin sertifikatları təqdim olunmuşdur.

Yasamal rayon MKS tərəfindən Gəncə, Şəki, Qax, Ağcabədi, Göyçay, Zərdab, Quba, Ucar, Astara, Qusar, Ağdaş MKS-lərinə kitablar hədiyyə edilmişdir.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

"Bakı Metropoliteni" QSC üçün 3 ədəd pikap tipli minik avtomobillərinin (4 qapılı, 4x4 təkər formullu) satınalınması üzrə
AÇIQ TENDER ELAN EDİR
Tender 1 (bir) lot üzrə keçirilir:
Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.
LOT-1. 3 ədəd pikap tipli minik avtomobillərinin
(4 qapılı, 4x4 təkər formullu) satınalınması
İştirak haqqı - LOT- 1 - 200 manat
Hesab: AZ98AZRT38050019440010268002
VÖEN: 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H: AZ02NABZ01350100000000022944
S.W.İ.F.T: AZRTAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10 yanvar 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 11 yanvar 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.
"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

TƏKRAR
"Bakı Metropoliteni" QSC-yə 2019-cu ildə tələb olunan yanğınsöndürən balonların doldurulması xidmətinin satınalınması üzrə
AÇIQ TENDER ELAN EDİR
Tender 1 (bir) lot üzrə keçirilir:
Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.
LOT-1. 2019-cu ildə tələb olunan yanğınsöndürən balonların doldurulması xidmətinin satınalınması
İştirak haqqı - LOT-1 - 150 manat
Hesab: AZ98AZRT38050019440010268002
VÖEN: 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H: AZ02NABZ01350100000000022944
S.W.İ.F.T: AZRTAZ22
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 14 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 24 dekabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 25 dekabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.
"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

# DÜNYA BUGÜN

**FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR**

## YENS STOLTENBERQ: NATO AVROPANIN TƏHLÜKƏSİZLİK TƏMƏLİDİR



Yens Stoltenberq Belçikanın paytaxtı Brüsseldə Avropa İttifaqına üzv dövlətlərin müdafiə nazirlərini bir araya gətirən toplantıdan əvvəl bəyanatlar verib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, NATO-nun baş katibi Şimali Atlantika Alyansının Avropanın təhlükəsizliyinin təməli olmağa davam etdiyini açıqlayıb.

NATO və Avropa İttifaqı arasındakı münasibətlərə diqqət çəkən Yens Stoltenberq NATO və Avropa İttifaqının kiber və hibrid təhdidlərə qarşı əməkdaşlığını inkişaf etdirdiyini vurğulayıb.

Eyni zamanda, Yens Stoltenberq Avropanın müdafiə sahəsindəki cəhdlərini məmnunluqla qarşıladığını və bunların NATO-nun daha da güclənməsinə töhfə verdiyini bəyan edib.

Yens Stoltenberq İngiltərənin Avropa İttifaqından çıxmasından sonra NATO-nun müdafiə xərclərinin 80 faizinin Aİ-yə üzv olmayan NATO üzvü ölkələr tərəfindən ödəniləcəyini bildirib.

"Coğrafi mövqenin əhəmiyyətini inkar etmirik. Şimalda Norveç, cənubda Türkiyə və qərbdə Amerika Birləşmiş Ştatları və İngiltərə Avropanın təhlükəsizliyi üçün çox mühüm ölkələrdir", - deyə NATO-nun baş katibi qeyd edib.

## MEKSİKAYA GƏLƏN MİQRANT DƏSTƏSİNDƏN 213 NƏFƏR SAXLANILIB



Mərkəzi Amerikadan ABŞ-a getmək üçün yola çıxan və Meksikaya gələn miqrant dəstəsindən 213 nəfər saxlanılıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Meksikanın Miqrasiya İnstitutundan açıqlamada bildiriblər ki, Mərkəzi Amerika miqrantlarından ibarət dəstələrdən 213 nəfər qeyri-qanuni yollarla ölkəyə daxil olduğu üçün saxlanılaraq nəzarət altına alınıb.

Məlumata əsasən, saxlanılanların lazımi sənədləri olmadığından onların öz ölkələrinə geri göndərilməsi gözlənilir.

Qvatemala sərhədi ilə Meksikanın Tapaçula şəhəri arasında şosedə nəzarətə alınan miqrantlardan 186-sı Salvador, 16-sı Qvatemala, 10-u Honduras və birinin Nikaraquadan olduğu bildirilib.

Birləşmiş Millətlər Təşkilatı Mərkəzi Amerikadan ABŞ-a çatmaq üçün yola çıxan miqrant karvanına 7 mindən artıq insanın qatıldığını, bunlardan 2300 nəfərinin uşaq olduğunu təxmin edir.

Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp ölkənin cənub sərhədinə toplanan miqrantları dayandırmaq üçün fövqəladə vəziyyət elan edib və sərhəd nəzarətçilərinin sayı kəskin şəkildə artırılıb.

Eyni zamanda, bildirilir ki, Mərkəzi Amerikadan ABŞ-a keçmək istəyən miqrant karvanının bir hissəsi Meksika-ABŞ sərhədinə çatdıqdan sonra regionda gərginlik yaşanıb və miqrantların Tixuanayı tərk etməsini tələb edən yüzlərlə şəhər sakini küçələrə axışaraq etiraz aksiyası keçirib.

## KEÇMİŞ HƏRBÇİ 5130 İL HƏBS CƏZASINA MƏHKUM EDİLDİ



Qvatemala Məhkəməsi 1982-ci ilin dekabr ayında Las Dos Erres kəndində təxminən 200 nəfərin öldürüldüyü qətliamda iştirak edən və 2016-cı ildə ABŞ-dan ekstradisiya edilən Santos Lopes Alonsoya "cinayət" və "insanlığa qarşı qətliam" maddələrilə cəza kəsib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə əsasən, 5130 il həbsə məhkum edilən 66 yaşlı Alonso ailəsi cinayətə qurban gedən 5 yaşlı oğlan uşağını qaçıraraq övladlığa götürüb, əsgərlərlə birlikdə qadınlara təcavüz edib, kəndliləri xüsusi amansızlıqla öldürərək cəsədlərini quyuya atıb.

Bildirilir ki, Alonso Qvatemala ordusunda xidmət edən və qətliamda iştirak edən üç əsgərlə birlikdə ABŞ-a gedən kimi həbs olunmuşdu. Bu əsgərlərdən ikisi hazırda Amerika həbsxanalarındadır. Ölkəsinə ekstradisiya edilən digər əsgər 6 min il həbs cəzasına məhkum edilib.

Birləşmiş Millətlər Təşkilatının verdiyi məlumata görə, Qvatemalada 1960-cı ildən 1996-cı ilə qədər sürən vətəndaş müharibəsində 200 mindən çox insan qətlə yetirilib, kəndlər yerlə-yeksan edilib və yüzlərlə insan itkin düşüb.

Məlumat üçün qeyd edək ki, Qvatemalada 1982-ci ildə çevrilişlə hakimiyyətə gələn və 17 ay ərzində təxminən 1700 sakini qətlə yetirdiyinə görə 80 il həbsə məhkum edilən keçmiş diktator Efrain Rios Montun da yenidən mühakimə olunmasına qərar verilib.

## ÇİNDƏ 2019-cu İLDƏN SÜNİ ZƏKA DƏRSLƏRİ TƏDRİS OLUNACAQ



Çində pilot layihə olaraq sınaqdan keçirilən süni zəka dərsləri 2019-cu tədris ilindən etibarən məktəblərdə könüllü və məcburi dərs kimi tədris edilməyə başlanılacaq. Bu barədə "TRT" telekanalı Çinin "Beynəlxalq Radio"suna istinadən xəbər verib.

Məlumata görə, 2019-cu ildən süni zəka bacarıqlarını əhatə edən dərs kitabları bir çox məktəblərdə istifadə olunacaq və ya məktəblərin əsas tədris planına daxil ediləcək.

Orta məktəblər üçün 10 cilddə hazırlanan kitabların artıq 6 cildi təhsilə hazır vəziyyətə gətirilib. Bu kitablarla tələbələrə kompüter bacarıqları, mühəndislik və texnologiya sahələrilə yanaşı, süni zəka ilə bağlı sistematik məlumatlar veriləcək.

Süni zəka haqqında kitablar hazırda ölkənin əsas biznes şəhəri olan Şanxayın Ciadinq bölgəsindəki bəzi məktəblərdə pilot layihə olaraq tədris prosesində öyrədilir.

Qeyd edək ki, Çinin Dövlət Şurası 2017-ci ilin iyul ayında nəşr etdirdiyi üçhissəli yol xəritəsi ilə 2030-cu ilə qədər ölkənin mülki və hərbi sahələrinədək süni zəka sektoruna 150 milyard dollar sərf ediləcəyini planlaşdırıb. Ötən il bu istiqamətdə 28 milyard dolların xərcləndiyi bildirilir.

## BURUN İNSANIN YALAN DANIŞIB-DANIŞMADIĞINI BÜRUZƏ VERİR



İspaniyanın Qranada Universitetinin alimlərinin iştirakı ilə aparılan təcrübədə insanların yalan danışan zaman burun temperaturunun azaldığı müəyyən olunub. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, aparılan təcrübələrin 80 faizi bunu təsdiq edib. Təcrübə zamanı insanlardan telefonla yaxınlarına zəng edərək onlara yalan danışmaları istənilib.

Eyni zamanda, bildirilir ki, təcrübədə könüllülərin üz nayihələri temperaturun paylanmasını göstərən termal cihazlar vasitəsilə izlənilib.

İnfraqırmızı görüntülərdə yalan danışan insanların burun temperaturunun 1,2 dərəcə aşağı düşdüyü və alın temperaturunun isə 1,5 dərəcə yüksəldiyi aşkar edilib.

Alim Emilio Qomez Milanın sözlərinə görə, burun temperaturunda azalma yalan danışmağa çalışan insanın yaşadığı həyəcandan qaynaqlanır. Alim həmçinin qeyd edib ki, yalan söylənildiyi zaman artan zehni iş alında istiliyin yüksəlməsinə səbəb olur.

## SÜFRƏ DUZUNUN 90 FAİZİNİN TƏRKİBİNDƏ MİKROPLASTİK VAR



Alimlər dünyada istifadə olunan süfrə duzlarının 90 faizinin tərkibində mikroplastik olduğunu aşkarlayıblar. Bu barədə "BBC" agentliyi məlumat yayıb.

Altı qitədən 16 müxtəlif ölkədə istehsal olunan 39 fərqli dəniz, qaya və göl duzunu araşdıran alimlər onların 36-sında mikroplastik hissəciklərinə rast gəliblər.

"National Geographic"in xəbərinə görə, dəniz duzunun tərkibində mikroplastik olduğu illərdir bilinirdi. Lakin dəniz duzunun tərkibində mikroplastikin nə qədər olması isə bu vaxta kimi tam aydın deyildi.

Ətraf mühiti mühafizə təşkilatı "Greenpeace"in Şərqi Asiya bölməsi ilə Cənubi Koreya tədqiqatçıları süfrə duzunun tərkibindəki mikroplastikləri və bunların plastik çirkliliyin geniş yayıldığı fərqli ərazilərlə əlaqələrini araşdırıb. Bu məqsədlə Avropa, Şimali və Cənubi Amerika, Afrika və Asiyada 21 ölkədən duz nümunələri götürülüb.

Araşdırmanın nəticələri mikroplastik miqdarının süfrə duzu növləri arasında böyük müxtəliflik göstərdiyini aşkarlayıb.

Ən çox mikroplastik hissəcikləri olan duzun satıldığı ölkə isə İndoneziyadır. 2015-ci ildə aparılan başqa bir araşdırmada İndoneziya dünyada plastik çirklənmənin ən yüksək olduğu ikinci ölkə kimi göstərilib.

Buna baxmayaraq, alimlər hesab edirlər ki, riskli bölgələrdən kənardakı ərazilərdə olan süfrə duzları da təmiz deyil. ■

# "Leto AMOR-2018" fotomüsabiqəsinin qalibləri elan olunub

**Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) "Leto AMOR-2018" yay əhvalatları fotomüsabiqəsinin qaliblərini elan edib. Müsabiqə hər il Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilir.**



AZƏRTAC xəbər verir ki, bu il müsabiqəyə 300-dən çox fotoiş təqdim edilib. "Leto AMOR-2018" müsabiqəsinin qaydalarına görə, iştirakçılar çəkdikləri fotoları "İnstagram" sosial şəbəkəsindəki öz səhifələrində yerləşdirməli və onlara yay əhvalatı barədə kiçik hekayə əlavə etməli idilər.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev açılış mərasimində çıxış edərək iştirakçılara təşkilatın sədri Leyla Əliyevanın salamlarını və xoş arzularını çatdırıb. O, həmçinin Leyla Əliyevaya Rusiyada yaşayan azərbaycanlı gəncləri daim dəstəklədiyinə görə təşəkkürünü bildirərək qeyd edib ki, azərbaycanlılar son illər Rusiyanın ictimai, sosial-iqtisadi və mədəni həyatında çox fəal iştirak edirlər.

E.Hacıyev, həmçinin azərbaycanlı gəncləri "Rusiyanın görkəmli şəxsiyyətləri" layihəsi çərçivəsində aparılan səsvermədə fəal iştirak etməyə çağırıb. O vurğulayıb ki, Surqut və Nijnevatrovsk, həmçinin Novı Urenqoy aeroportlarında yekun səsvermə siyahısına məşhur azərbaycanlıların - əfsanəvi geoloq Fərman Salmanov və keçmiş SSRİ-nin qaz sənayesi naziri Sabit Orucovun adları daxil edilib.

Sonra müsabiqənin qalibləri elan olunub. Səbinə Haşımova "Etnoqrafik rəsmlər" nominasiyasının ən yaxşı müəllifi olub. "Təbiətin naxışları" nominasiyasında birinci yeri Diana Dadaşova tutub. Leyla Süleymanovanın fotoişi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi - tariximiz, bu günümüz və gələcəyimiz" nominasiyasının qalibi olub. "Bakı və bakılılar. Komfortlu şəhər" və "Küçə fotoqrafı" - "Street Art" nominasiyalarında Ülvi Novruzov və Sevinc Alıyeva qalib adını qazanıblar.

Qaliblərə fəxri diplomlar və qiymətli hədiyyələr təqdim olunub.

**AZƏRTAC**

## Şəmkir Rayon İcra Hakimiyyəti başçısının Şəmkir Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** İstilik enerjisi (yanacaq) xərci.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**GPON (Giqabit imkanlı passiv optik şəbəkə) texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədi ilə iş və xidmətlərin satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **2000 (iki min) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 9900044741, hesab: AZ14AZPO91015461200420100157,*

*bank: "Azərpoçt" MMC PF 1, kodu: 691011, bankın VÖENi: 9900037711,*

*m/h: AZ76NABZ01350100000000094944, S.W.İ.F.T: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **03 yanvar 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*

*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*9. İddiaçının müvafiq uyğunluq sertifikatları.*

*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 yanvar 2019-cu il saat 17:00-a qədər** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **15 yanvar 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Məmmədov Faiq Ramiz oğlu, tel.: (+994 12) 498-39-29**

**Tender Komissiyası.**

TƏKRAR

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Baş Səhiyyə İdarəsi Uşaq Nevroloji Xəstəxanası

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə aparılır:**

**Lot-1.** Mühafizə xidməti.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Şahbazi 95 ünvanından ala bilərlər.

**Lot-1. 180 (yüz səksən) manat.**

*Alan müştəri: Uşaq Nevroloji Xəstəxanası*
*VÖEN: 1300456311*
*Hesab N-si*
*AZ15İBAZ34501089440000107216*
*ABB-nin Yasamal filialı*
*Kod: 805562*
*VÖEN: 9900001881*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*SWİFT BİK İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifinin qiymətinin 1 faizi həcmində təklifin təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergi borclarının, DSMF və digər icbari öhdəliklərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*- son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- ixtisas dərəcəsinə dair məlumat;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

**Əlaqələndirici şəxs: G.Əlizadə.**

**Əlaqə telefonu: 538-33-17**

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 25 dekabr 2018-ci il saat 17:00-a qədər təqdim etməlidirlər.

İddiaçılar Lot üzrə tender təkliflərini 7 yanvar 2019-cu il saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 8 yanvar 2019-cu il, saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Akademik M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxananın "İdarənin digər xərcləri" təsnifatı üzrə keçirilmiş kotirovkanın 26 noyabr 2018-ci il tarixli yekun protokoluna əsasən "Shine Service" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Zərgərpalan küçəsi 4. Əlaqələndirici şəxs: Ə.Qasımov, Telefonlar: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

KRAFT KARTON LÖVHƏLƏR VƏ QUTULARın təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-12-04 saat 14:00 tarixinədək qəbul olunur.

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

AVTOYÜKLƏYİCİLƏR və YÜK MAŞINLARI ÜÇÜN TƏKƏRLƏRin təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-11-30 saat 14:00 tarixinədək qəbul olunur.

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

AKZONOBEL BOYASInın təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-11-30 saat 14:00 tarixinədək qəbul olunur.

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

TEXNİKİ DUZun təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-11-28 saat 14:00 tarixinədək qəbul olunur.

## BİLDİRİŞ

"AZƏRALÜMİNİUM" MMC,

"DALİAN" MARKALİ AVTOYÜKLƏYİCİLƏRİnin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (050) 205-77-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-12-05 saat 14:00 tarixinədək qəbul olunur.

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1 - Daşkəsən rayonunda yerləşən ADBZ üçün malların və ehtiyat hissələrinin satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçılar lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, tel.: 012-505-02-02 (dax.1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 130 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **04 yanvar 2019-cu il saat 15.00-a qədər,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **14 yanvar 2019-cu il, saat 15.00-a qədər** "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **15 yanvar 2019-cu il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC,**
**Tender Komissiyası.**

## Tərtərçay HQİİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender iki lot üzrə keçirilir:**

**Lot-1.** Əsaslı və cari təmir işləri üçün tikinti materiallarının satınalınması

**Lot-2.** Avtomaşın və mexanizmlər üçün ehtiyat hissələrinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tərtər şəhəri, V.Həsənov 2 ünvanından (Əlaqələndirici şəxs: Ələsgərov Nurəddin, telefon: (051) 381-81-17) ala bilərlər.

**İştirak haqqı: hər lot üçün 60 (altmış) manat**

*VÖEN: 7200072551*
*A1. Kapital Bank ASC*
*Kodu: 200457*
*VÖEN: 9900003611*
*M\h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. AİİBAZ2 x*
*A2. Ödəyən müştəri*
*Adı: Tərtər YXO*
*H\h: AZ63AİİB32051019444500201145*
*VÖEN: 7200062591*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*—iddiaçının asfalt yol çəkilməsi işləri üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 4 yanvar 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 14 yanvar 2019-cu il saat 17:00-a qədər Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 15 yanvar 2019-cu il tarixdə saat 14:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 19.10.2018-ci il tarixində keçirilmiş işçi alətləri üçün sərfiyyat materiallarının "Açıq Tender" üsulu ilə satınalınmasına dair müsabiqədə "Metal ETM" MMC ƏDV daxil 280840,00 manat (iki yüz səksən min səkkiz yüz qırx manat, 00 qəpik) manat məbləği ilə qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilatla 22.11.2018-ci il tarixdə müvafiq satınalma müqavilə imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin**
**Tender Komissiyası.**

## "Bakı Metropoliteni" QSC

## KOTİROVKA SORĞUSU ELAN EDİR

"Bakı Metropoliteni" QSC nin "Xətai" stansiyasında yerləşən "Şah İsmayıl Xətai"nin memorial kompozisiyasının bərpası işlərinin satınalınması.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.11.2018-ci il saat 18.00 tarixinədək qəbul olunur.

Təkliflər 30.11.2018-ci il tarixində saat 16:00-da açılacaqdır.

**Ünvan:** *Bakı ş., M.Rəfili 16, tel.: (012) 490-00-91*

**Əlaqələndirici şəxs:** *Zakir Hacıyev.*

## Hacıqabul Mərkəzi Rayon Xəstəxanası

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Təmir işlərinin görülməsi.

**Əlaqə tel.:** *(050) 514-18-10*

**Ünvan:** *Hacıqabul şəhəri, B.M.Litvinçuk küçəsi 8.*

Təkliflər 30 noyabr 2018-ci il saat 12:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"ADY" QSC Həkim Sanitar Xidmətinin Mərkəzi Dəmiryol Xəstəxanası 01.12.2018-ci il tarixdə "Dövlət Satınalmaları haqqında" Qanunun 48.2 maddəsinin tələblərinə əsasən, təkliflər sorğusu üsulu ilə (90 KVA gücə malik olan elektrik enerjisi istehsal edən Generatorun satınalınması) həyata keçirir.

**Tender Komissiyası.**

Quliyeva Əntiqə Bahadur qızının adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Mahir Sabir oğluna məxsus Dövlət Reyestrindən ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır (Seriya RX: 0250159, ünvan: Abşeron rayonu, Xırdalan şəhəri).

Məmmədov Elşən Gülbala oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Suraxanı r-nu, Y.Günəşli massivi-D, ev-19, mənzil-70).

Beyləqan rayonu, I Şahsevən kənd sakini Qafarov Hüseyn Yusif oğlunun mülkiyyətində olan həmin kənddə 0,03 ha torpaq sahəsində yerləşən qeyri-yaşayış sahəsi (mağaza) binasına mülkiyyət hüququna dair verilmiş çıxarış (Seriya MH N 0000996, Reyestr N 607013001259-06301, qeydiyyat N 170701827, verilmə tarixi: 28.12.2007) və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, Təzəkənd kənd sakini məhrum Hüseynov Museyib Əziz oğlu və ailə üzvlərinin xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən 4,60 ha torpaq sahəsininin torpağın mülkiyyətə verilməsinə dair JN 0012 (KOD 60711018) dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının qərarı ilə Kərgəlan kənd sakini Babayev Rəfail Ağaxan oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair JN 216 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 23 yanvar 1998-ci il tarixli 1 nömrəli qərarı ilə Hirkan qəsəbə sakini Paşayev Varis Xanoğlan oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 188 F; KOD 80203016) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 17 may 2004-cü il tarixli 7 nömrəli qərarı ilə Göyşaban kənd sakini Quliyev Qulu İman oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 021 A; KOD 80215018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının qərarı ilə Yuxarı Nüvədi kənd sakini Rəhimov Rəfayil Yəhya oğluna verilmiş JN 0145 nömrəli Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 11 dekabr 1998-ci il tarixli 28 nömrəli qərarı ilə Tüləgüvan kənd sakini Şəkərov Yədulla Mirəl oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0017; KOD 80102038) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 16 oktyabr 2000-ci il tarixli 25 nömrəli qərarı ilə Motlayataq kənd sakini Əkbərov Şahlar Əjdər oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 156; KOD 80103058) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin Elmi fəaliyyətin təşkili şöbəsinin böyük mütəxəssisi Zöhrə Məmmədovaya, qızı**

**ÇİNARƏ MƏMMƏDOVANIN**

**vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Azərbaycanda Suvarma Drenaj İnfrastrukturunun bərpası və tamamlanması layihəsini həyata keçirən işçi qrupu qrupun direktoru Akif Mustafayevə, qayınatası**

**NAİL QULİYEVİN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Hümmət MUSAYEV**

● **Çapa imzalanmışdır**
**26.11.2018**